

NƏ QƏDƏR Kİ MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ VAR, AZƏRBAYCAN XALQI VAR, HEYDƏR ƏLİYEV ÜRƏKLƏRDƏ YAŞAYACAQDIR!


VAHİD AZƏRBAYCAN UĞRUNDA!

# iki sahil

www.ikisahil.az / www.ikisahil.tv

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET    № 122 (7377) / Çərşənbə, 10 iyul 2019-cu il


# Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələr tərəfdaşlıq ruhu və qarşılıqlı dəstəyə əsaslanır



Azərbaycan Prezidenti İlham Əliyevin və Avropa İttifaqı Şurasının Prezidenti Donald Tuskun görüşü olub

Bax: səh. 2



## Büdcənin sosialyönümlülüyü artır, sosial müdafiə gücləndirilir, yeni hədəflərə yol açılır

*Beynəlxalq maliyyə qurumları dövlətimizin pensiya və əməkhaqqı siyasətini yüksək dəyərləndirirlər*

Bax: səh. 5

## Naxçıvanda təhlükəsizliyin təmin olunması ilə bağlı müşavirə keçirilib



Bax: səh. 7



*Mübariz Qurbanlı:*

## Ümummilli Lider tariximizi yazan dahi şəxsiyyətdir

Bax: səh. 8



*Küveytin nümayəndəsi:*

## Qonaqpərvərliyə və səmimi münasibətə görə Azərbaycan xalqına minnətdaram

Bax: səh. 8



## Mədəni irsimizin daha bir nümunəsi dünya xəzinəsində

Bax: səh. 9


11 Çimərlik mövsümü: hansı qaydalara riayət etməliyik?

13 Azərbaycan diplomatiyası: bir əsrlik inkişaf yolu

16 İnfeksiya mənbəyi olan əşyalarınızı yeniləyin

# Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələr tərəfdaşlıq ruhu və qarşılıqlı dəstəyə əsaslanır

## Azərbaycan Prezidenti İlham Əliyevin və Avropa İttifaqı Şurasının Prezidenti Donald Tuskun görüşü olub









**İyulun 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Donald Tusk ilə təkbətək görüşü olub. Daha sonra tərəflər geniş tərkibdə görüşüblər.**

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Donald Tusku qarşıladı.

Təkbətək görüşdə çıxış edən Prezident İlham ƏLİYEV dedi:

-Cənab Prezident, Azərbaycana xoş gəlmisiniz. Sizi ölkəmizdə görməyə çox şadıq. Mən sizin Azərbaycana bundan əvvəlki səfərinizi xatırlayıram. O vaxtdan bu yana Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlər uğurla inkişaf edib.

Biz çox sayda görüş keçirmişik və çox uğurla inkişaf edən əməkdaşlığımızla bağlı geniş spektrli məsələləri müzakirə etmişik. Bu, çox sahələri əhatə edir və biz tərəfdaşlığımızı yeni səviyyəyə yüksəltməyə nail olmuşuq.

Əminəm ki, səfər çox uğurlu olacaq. Əlbəttə ki, biz gündəliyimizdə duran məsələləri müzakirə edəcəyik və Avropa İttifaqı ilə Azərbaycan arasında gələcək əməkdaşlığı planlaşdıracağıq. Əminəm ki, qarşıdakı illərdə biz tərəfdaşlığın müsbət məcrada inkişafını davam etdirəcəyik, bu da Azərbaycanın maraqlarına xidmət edir. Ümidvaram ki, uğurla həyata keçirdiyimiz bütün layihələr yaxşı nəticələr verəcək. Bir daha xoş gəlmisiniz. Sizə ölkəmizdə xoş vaxt keçirməyi arzulayıram.

* * *

Avropa İttifaqı Şurasının Prezidenti Donald TUSK dedi:

-Təşəkkür edirəm, cənab Prezident! Sizin qonağınız qismində burada - Bakıda, Azərbaycanda olmaq hər zaman böyük məmnuniyyətdir. Bu, yəqin ki, mənim Avropa İttifaqı Şurasının Prezidenti qismində Bakıya son səfərimdir. Mənim niyyətim Avropada bizim hamımız üçün Sizin ölkənizlə mümkün qədər ən yaxşı əlaqələrə sahib olmağın nə dərəcədə mühüm olduğunu vurğulamaqdan ibarətdir. Mənim mesajım tamamilə aydındır.

Mən bizim əlaqələrimizə gəldikdə, Sizin şəxsi rolunuzun, şəxsi iştirakınızın nə dərəcədə əhəmiyyətli olduğunu bilmənizi istəyirəm. Mən Sizin səylərinizi həqiqətən qiymətləndirirəm. Siz hər zaman çox konstruktivsiniz və Sizin çox müsbət və konstruktiv rolunuz sayəsində bizim görüşlərimiz də olduqca səmərəli keçir. Bir daha təşəkkür edirəm, cənab Prezident!

* * *

Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Donald Tuskla işçi nahar çərçivəsində geniş tərkibdə görüşü olub.

### Azərbaycan Prezidenti İlham Əliyev və Avropa İttifaqı Şurasının Prezidenti Donald Tusk mətbuata bəyanatlarla çıxış ediblər

İyulun 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa İttifaqı Şurasının Prezidenti Donald Tusk mətbuata bəyanatlarla çıxış ediblər.

#### AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

-Hörmətli cənab Prezident, əziz qonaqlar, xanımlar və cənablar.

İlk növbədə, mən bir daha Avropa İttifaqı Şurasının Prezidenti cənab Donald Tusku Azərbaycanda salamlamaq istərdim. Bu, cənab Prezidentin ölkəmizə ilk səfəri deyil, Avropa İttifaqı Şurasının Prezidenti qismində ikinci səfəridir. Mən dəfələrlə Brüsseldə səfərdə olmuşam. Beləliklə, bu, bizim çox fəal siyasi dialoq apardığımızı göstərir. Cənab Prezidentin bugünkü səfəri bir daha onu nümayiş etdirir ki, Avropa Komissiyası ilə Azərbaycan arasında əlaqələrin çox müsbət dinamikası var.

Bu gün təkbətək və nümayəndə heyətlərinin iştirakı ilə görüşlərimiz zamanı biz ikitərəfli əməkdaşlığımıza dair geniş spektrli məsələləri, regional inkişaf və təhlükəsizlik məsələlərini müzakirə etdik. Biz yeni sazişlə bağlı Avropa Komissiyası ilə Azərbaycan arasında davam edən danışıqları müzakirə etdik. Danışıqların perspektivləri ilə bağlı fikirlərimizi ifadə etdik. Danışıqlar uğurla davam edir. Bir çox məsələlər artıq öz həllini tapıb. Hazırda biz yaxşı tərəfdaşlıq ruhunda digər məsələlər üzərində iş aparırıq. Ötən il Avropa Komissiyası ilə Azərbaycan arasında Tərəfdaşlıq prioritetləri sənədi qəbul olundu. Bu, çox mühüm sənəddir. Burada Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığına dəstək ifadə olunur. Bu gün Cənab Prezidentlə təkbətək görüşümüz zamanı mən ona Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı mövqeyimiz barədə məlumat verdim. Münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə əsasən həll olunmalıdır. Uzun illərdir ərazilərimiz erməni işğalı altındadır. Bir milyondan çox qaçqın və məcburi köçkün bu təcavüz və işğaldan əziyyət çəkir. Bizim qəti mövqeyimiz ondan ibarətdir ki, münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Səylərimiz münaqişənin ən tez zamanda həllinə yönəlib. Münaqişənin indiyədək həll olunmamasının əsas səbəbi Ermənistanın qeyri-konstruktiv mövqeyidir. Qeyd etməliyəm ki, beynəlxalq ictimaiyyətin və ATƏT-in Minsk qrupunun səyləri münaqişənin ən tez zamanda həllinə yönəlməlidir. Status-kvo qəbuledilməzdir və dəyişməlidir. Status-kvonun dəyişməsi Azərbaycan ərazilərinin işğaldan azad edilməsinin başlanması deməkdir.

Bu gün biz, həmçinin enerji təhlükəsizliyi, nəqliyyat sektoru ilə bağlı məsələləri müzakirə etdik. Azərbaycan və Avropa İttifaqı bu sahələrdə çox konstruktiv əməkdaşlıq edir. Cənub Qaz Dəhlizi layihəsi uğurla həyata keçirilir. Nəqliyyat sektoruna gəlincə, Azərbaycanda logistika və nəqliyyat sahəsinə yatırılan investisiyalar bizə mühüm nəqliyyat habına çevrilmək imkanı verib. Şərq-Qərb və Şimal-Cənub dəhlizləri ölkəmizin ərazisindən keçir. Sözsüz ki, coğrafi mövqeyimiz üstünlük yaradır, lakin nəqliyyat sektoruna investisiyalar yatırılmasaydı, coğrafi mövqeyimiz o qədər də böyük məna kəsb etməzdi. Bu səbəbdən də son illərdə bizim bu istiqamətdəki səylərimiz artıq yaxşı nəticələr verir, Azərbaycan mühüm tranzit ölkəyə çevrilir. Gələcəkdə bizim tranzit ölkə kimi rolumuz sözsüz ki, artacaq.

Biz digər sektorlarda da yaxşı əməkdaşlıq edirik. Ümidvarıq ki, bütün planlarımız həyata keçiriləcək. Çünki Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələr tərəfdaşlıq ruhu və qarşılıqlı dəstəyə əsaslanır. Mən bu əlaqələrin inkişafına verdiyi şəxsi töhfəyə görə xüsusilə Prezident Tuska minnətdarlığımı bildirmək istərdim. O, Azərbaycandakı vəziyyətə yaxşı bələddir. Onun bizim yaxınlaşmağımızda rolu çox mühümdür. Biz də öz tərəfimizdən Avropa İttifaqı ilə Azərbaycan arasında əməkdaşlığı gücləndirmək üçün çox işlər görürük. Mən, həmçinin qeyd etmək istərdim ki, Azərbaycan Avropa İttifaqının bir neçə üzv ölkəsi ilə strateji tərəfdaşlığa dair sənədləri qəbul edib və ya imzalayıb. Bu da bizim əməkdaşlığımıza yaxşı töhfədir.

Cənab Prezident, bir daha xoş gəlmisiniz. Bu gün bizimlə olduğunuza görə təşəkkür edirəm.

⇨ Davamı 3-cü səhifədə

# Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələr tərəfdaşlıq ruhu və qarşılıqlı dəstəyə əsaslanır

## Azərbaycan Prezidenti İlham Əliyevin və Avropa İttifaqı Şurasının Prezidenti Donald Tuskun görüşü olub

⇨ Əvvəli 2-ci səhifədə

### AVROPA İTTİFAQI ŞURASININ PREZİDENTİ DONALD TUSKUN BƏYANATI

-Əvvəla bizi səmimi qarşıladığınıza və bizə göstərdiyiniz qonaqpərvərliyinizə görə Sizə təşəkkür edirəm, cənab Prezident. Bakıya qayıtmaq məndə həqiqətən də məmnunluq hissi doğurur. Kağızımda "küləklər şəhəri" yazılıb, mən bilirəm, bu, Bakının ənənəvi adıdır, lakin bu gün şəhər çox sakit görünür.

Azərbaycan çox nadirdir. Ölkəniz özündə ənənə və müasirliyi birləşdirir. Bu günün mürəkkəb coğrafi landşaftındakı strateji mövqeyinizə görə Siz həm Şərqə, həm də Qərbə doğru baxırsınız. Əvvəllər də qeyd etdiyim kimi, cənab Prezident, Avropa İttifaqı Azərbaycanın suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü dəstəkləyir. Avropa İttifaqı və Azərbaycan hər il bir-birinə yaxınlaşır. Münasibətlərimiz intensivləşib və mənim bugünkü səfərim buna aydın işarədir. 2018-ci ildə biz tərəfdaşlıq üzrə prioritetləri müəyyən etdik və Ümumi Aviasiya Məkanı üzrə Saziş, habelə yeni Aİ-Azərbaycan sazişi üzrə danışıqlar yekunlaşmaq üzrədir. İqtisadiyyatlarımız bunlardan faydalanacaq və bizim siyasi, biznes və mədəni münasibətlərimiz dərinləşəcək. Əlbəttə ki, biz bizi sözün həqiqi mənasında birləşdirən Cənub Qaz Dəhlizini unutmamalıyıq. Bu müsbət məqam tərəfdaşlığımızı daha yüksək səviyyəyə qaldırmalı, bütün xalqlarımız üçün birbaşa faydalı olmalıdır, Azərbaycanın islahatlar və iqtisadi şaxələnmə prosesini müşayiət etməlidir.







Azərbaycan özünü nəqliyyat və logistika qovşağına çevirmək üçün mühüm addımlar atıb. Mən Azərbaycanın Şərq və Qərb, eyni zamanda, Şimal və Cənub tərəfdaşları üçün iddialarının təcəssümü olan Bakı limanına səfər etməyi səbirsizliklə gözləyirəm.

Bu gün Prezident Əliyevlə apardığım müzakirələrdə mən Azərbaycanla əməkdaşlığı daha da dərinləşdirmək üçün Avropa İttifaqının hazır olduğunu bir daha təsdiq etdim və eyni zamanda, bizim qanunun aliliyi, insan hüquqları və əsas azadlıqlara nə qədər böyük önəm verdiyimizi vurğuladım. Avropa İttifaqı hesab edir ki, həqiqətən açıq olan cəmiyyət uzunmüddətli sabitliyin və bütün vətəndaşlar üçün yaxşı həyatın ən gözəl təminatıdır.

Regionda sabitliyə istinad edərək biz, həmçinin həll olunmamış Dağlıq Qarabağ münaqişəsini də müzakirə etdik. Bu münaqişə hərbi yolla yox, yalnız beynəlxalq hüququn prinsipləri əsasında siyasi yolla öz həllini tapmalıdır. Avropa İttifaqı Minsk qrupu həmsədrlərinin səylərini və Helsinki Yekun Aktının əsas prinsipləri əsasında diqqətin münaqişənin ədalətli və davamlı həllinə yönəlməsini tamamilə dəstəkləyir.

Biz, ümumilikdə gərginliyin azalmasını yüksək dəyərləndiririk, lakin təmas xətti boyunca son itkilər həmsədrlər kimi bizi də narahat edir. Güc tətbiq etməmək üçün təmkinli olmaq önəmlidir, lakin, eyni zamanda, sülhə və səmərəli danışıqların aparılmasına imkan verən ab-havanın bərpasına yönəlmiş tədbirlər də mühüm əhəmiyyət kəsb edir. Avropa İttifaqı artıq sülhün qurulmasına yönəlmiş fəaliyyətləri dəstəkləyir və xalqları sülhə hazırlamaq üçün konkret tədbirlərlə kömək etməyə hazırdır.

Nəhayət, bu gün günün ikinci yarısında mən Qobustana səfər etmək şərəfinə nail olacağam. Romalı legionerlər tərəfindən qaya üzərində çəkilən təsvirlər Azərbaycanın minilliklər ərzində Avropada necə də mühüm yer tutduğunun sübutudur. Bu zaman dönəmində mən tərəfdaşlığımızı gələcək illərdə inkişaf etdirəcəyimizi səbirsizliklə gözləyirəm.

Sağ olun, cənab Prezident.

### Avropa İttifaqı Şurasının Prezidenti Donald Tusk Bakı Limanının fəaliyyəti ilə tanış olub



İyulun 9-da Avropa İttifaqı Şurasının Prezidenti Donald Tusk Ələt qəsəbəsində yerləşən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin fəaliyyəti ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, İqtisadiyyat naziri Şahin Mustafayev yeni Bakı Limanının fəaliyyəti, iş prinsipi barədə qonağı məlumatlandırıb. O bildirib ki, 2018-ci il mayın 14-də Azərbaycan Prezidenti İlham Əliyev Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin açılışında iştirak edib. Limanın inşası Prezident İlham Əliyevin ölkənin regional nəqliyyat qovşağına çevrilməsi siyasətində mühüm yer tutur. Azərbaycan Şimal-Cənub və Şərq-Qərb beynəlxalq nəqliyyat dəhlizlərində yerləşməklə yeni liman üçün zəngin tranzit potensialı yaradır, ona ölkəyə daxil olan, ölkədən daşınan və tranzit yüklərin aşırılmasında strateji nəqliyyat qovşağı funksiyalarını yerinə yetirmək, Xəzər dənizi ilə səmərəli, sürətli və təhlükəsiz bərə keçidini təmin etmək imkanı verir. Bu kompleks Bakı-Tbilisi-Qars dəmir yolu xətti üçün birbaşa yükyığma məntəqəsi funksiyalarını yerinə yetirir. Şimal, Cənub, Şərq və Qərb istiqamətlərindən dəhlizlər üzrə ölkəyə daxil olan yüklər yeni liman kompleksində toplanır və Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə Avropa istiqamətində və ya gəmilərlə şərq istiqamətində daşınır. Həmçinin Bakı Limanı Avropa-Asiya ticarət dövriyyəsində mühüm mövqeyə malikdir. Azərbaycan Avropa və Asiyanı əlaqələndirən nəqliyyat dəhlizi və öz strateji mövqeyi ilə nəqliyyat və logistika qovşağı kimi əhəmiyyətli rol oynayır. Yeni limanın ərazisi də daxil olmaqla ətraf ərazidə sərbəst iqtisadi zona yaradılır. Bu, mühüm nəqliyyat qovşağı olan limanı tranzit və daşımalar üçün daha geniş imkanlarla təmin edəcək.

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinin baş direktoru Taleh Ziyadov qonağa məlumat verib ki, limanda tətbiq olunmağa başlanan IT sistemi bütün əməliyyatları avtomatlaşdırıb yük sahibinə onlayn rejimdə yükə nəzarət etmək, ərazidəki yerini təyin etmək və sair üstünlüklər verir. Yüklərin sürətli və səmərəli yüklənib-boşaldılması üçün Liman Əməliyyat İnformasiya Sistemi vasitəsilə əraziyə daxil olan konteyner, TIR vasitəsilə gətirilən quru yüklərin gəmilərə yüklənmə və boşalma vaxtı müəyyən edilir və proseslər həmin qrafikə uyğun həyata keçirilir. İnternet vasitəsilə işləyən bu əməliyyat sistemi yük sahibinə yükün Bakı Limanına daxil olması və limandan çıxması barədə dərhal məlumat verir. Tətbiq edilən ən son müasir texnoloji və mühəndis həlləri kompleksi regionda beynəlxalq tələblərə cavab verən ən müasir və rahat yükaşırma mərkəzinə çevirir, mühüm nəqliyyat qovşağı kimi onun tranzit və daşıma imkanlarını artırır.

Sonra qonaq limanda yaradılan infrastrukturla tanış olub.

İqtisadiyyat naziri Şahin Mustafayev məlumat verib ki, liman 400 hektar ərazini əhatə edir və 12 yanalma körpüsünə malikdir. Körpülərin ümumi uzunluğu 2100 metrə yaxındır. Müasir dövrün ən son mühəndislik yeniliklərindən olan dəmir-beton konstruksiyalı istinad divarının uzunluğu isə 1777 metr təşkil edir. Limanda Ro-Ro tipli gəmilər üçün iki körpü, yeddi körpüdən ibarət universal quru yük və konteyner terminalı, iki bərə körpüsü, həmçinin xidməti donanma gəmiləri üçün bir körpü inşa edilib. Limanda xidməti donanma gəmiləri üçün körpünün uzunluğu 155 metrdir və buraya eyni vaxtda 11 gəmi yan ala bilər. Limanın yükaşırma imkanı illik 15 milyon ton yük, o cümlədən 100 min konteyner təşkil edir. Ümumiyyətlə isə bütün inşa işləri bitdikdən sonra liman mövcud 17 körpüsü ilə 25 milyon ton yük, o cümlədən 500 min konteyner yük aşıra biləcək.

### Qobustan Milli Tarix-Bədii Qoruğu Avropa İttifaqı Şurasının Prezidentində xoş təəssürat yaradıb

Azərbaycanda səfərdə olan Avropa İttifaqı Şurasının Prezidenti Donald Tusk iyulun 9-da Qobustan Milli Tarix-Bədii Qoruğunda olub.

AZƏRTAC xəbər verir ki, əvvəlcə qonaq qoruğun ərazisində yaradılmış muzeydə nümayiş etdirilən eksponatlara baxıb.

Məlumat verilib ki, Qobustan Dövlət Tarix-Bədii Qoruğu açıq səma altında qoruq-muzey kimi böyük şöhrət qazanıb. Ərazidə daş dövründən son orta əsrlərə qədərki həyat və məişəti əks etdirən çoxsaylı maddi mədəniyyət nümunələrini müasir azərbaycanlıların ulu əcdadları min illər ərzində yaradıblar. Qobustan qaya rəsmləri dünyada bu tipli abidələrdən ən zənginidir. Qoruq ərazisində alimlər tərəfindən 6 mindən çox qayaüstü təsvir, 20 mağara və yaşayış yeri, 40 kurqan aşkar edilib və öyrənilib.

Qeyd edilib ki, Qobustan Milli Tarix-Bədii Qoruğundakı nadir qayaüstü rəsmlərin geniş təbliğinin xüsusi əhəmiyyətini nəzərə alan dövlətimizin başçısı İlham Əliyevin Sərəncamı ilə qoruq muzeyi üçün yeni bina tikilib.

Qonağın diqqətinə çatdırılıb ki, dünya əhəmiyyətli tarixi abidə olan Qobustan qoruğu 2007-ci ildə UNESKO-nun Maddi-Mədəni İrs Siyahısına daxil edilib.

Donald Tusk ərazidə aparılmış tədqiqat işləri ilə və tarixi eksponatlarla maraqlanıb.

Sonda qonağa Qobustanın tarixini əks etdirən kitablar hədiyyə olunub.

Avropa İttifaqı Şurasının Prezidenti Qobustan Milli Tarix-Bədii Qoruğundan xoş təəssüratla ayrılıb.



## Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının 100 illik yubileyinə həsr olunmuş VI müşavirənin iştirakçılarına

*Hörmətli müşavirə iştirakçıları!*

*Sizi salamlayır və Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının 100 illik yubileyi münasibətilə təbrik edirəm.*

*Şərqdə, müsəlman dünyasında ilk parlament respublikasının - Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması haqqında İstiqlal Bəyannaməsində təsbit olunduğu kimi, bütün millətlərlə dost münasibətlər yaratmaq Cümhuriyyətin xarici siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyən edilmişdi.*

*Ötən il 100 illik yubileyini qeyd etdiyimiz Azərbaycan Xalq Cümhuriyyəti fəaliyyət göstərdiyi qısa müddət ərzində böyük işlər görə bilmişdi.*

*Azərbaycan Xalq Cümhuriyyəti Xarici İşlər Nazirliyinin Katibliyinə dair müvəqqəti təlimatın 1919-cu ildə qəbul edildiyi tarix - iyulun 9-u Azərbaycan Respublikasının diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı günü kimi qeyd edilir. Bu gün həmin tarixdən düz 100 il keçir.*

*Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi 1991-ci ildə müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikası da Azərbaycan Xalq Cümhuriyyətinin üzləşdiyi çətinliklərlə qarşılaşmışdı. Ermənistan tərəfindən Azərbaycana qarşı ərazi iddiaları və torpaqlarımızın işğalı, mürəkkəb siyasi proseslər, sosial-iqtisadi problemlər müstəqilliyini yenicə bərpa etmiş Azərbaycan Respublikasının taleyini sual altına qoymuşdu.*

*1993-cü ilin iyununda xalqın israrlı tələbi ilə Heydər Əliyevin hakimiyyətə qayıdışı tariximizdə dönüş nöqtəsi oldu. Heydər Əliyev Azərbaycanı o ağır vəziyyətdən qurtararaq inkişaf yoluna çıxardı, ölkəmiz bütün sahələrdə inamla irəliyə doğru addımlamağa başladı və xarici siyasət strategiyamızın təməl prinsipləri müəyyən olundu. Ötən dövr ərzində biz güclü, qüdrətli dövlət qura bildik və bu gün biz əminliklə deyə bilərik ki, Azərbaycan dövləti heç vaxt indiki kimi güclü olmamışdır.*

*Bu gün Azərbaycan, sözün əsl mənasında, müstəqil siyasət aparan, beynəlxalq aləmdə böyük nüfuza malik olan bir ölkədir. Bizimlə əməkdaşlıq edən ölkələrin sayı daim artır. Biz dünyanın ən mötəbər qurumu olan BMT Təhlükəsizlik Şurasına iki dəfə sədrlik etmişik. Biz bütün digər aparıcı beynəlxalq təşkilatlarla çox sıx əməkdaşlıq edirik. Azərbaycan bütün dünyada etibarlı tərəfdaş kimi tanınır, mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi edir və buna görə də ölkəmizə böyük hörmət və rəğbətlə yanaşırlar.*

*Ölkəmizin xarici siyasəti uğurlu daxili siyasətimizin davamıdır. Müstəqilliyimizin möhkəmləndirilməsində, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında, ölkəmizin beynəlxalq birliyin fəal üzvünə çevrilməsində diplomatlarımızın, diplomatik xidmət orqanlarımızın müstəsna xidmətləri var.*

*Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünə son qoyulması, işğal olunmuş ərazilərimizin azad edilməsi və ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyinin bərpa edilməsi xarici siyasətimizin gündəliyində duran ən vacib məsələdir. Ardıcıl diplomatik səylərimiz nəticəsində beynəlxalq ictimaiyyət ölkəmizin ərazi bütövlüyü və suverenliyini, münaqişənin məhz bu prinsiplər əsasında həllini qətiyyətlə dəstəkləyir.*

*Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının 100 illik yubileyi münasibətilə Xarici İşlər Nazirliyinin, səfirliklərimizin və nümayəndəliklərimizin əməkdaşlarına, xarici siyasət sahəsində çalışan bütün şəxslərə bir daha ən səmimi təbriklərimi yetirir, Azərbaycanın milli maraqlarının qorunması, ölkəmizin beynəlxalq aləmdə layiqincə təmsil olunması və xarici siyasət xəttinin müvəffəqiyyətlə həyata keçirilməsi kimi məsul və şərəfli işdə uğurlar arzulayıram.*

**İLHAM ƏLİYEV**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 8 iyul 2019-cu il.

# Diplomatik xidmət orqanlarının əməkdaşları təltif edilib

**Prezident İlham Əliyev Azərbaycan Respublikasının diplomatik xidmət orqanları əməkdaşlarının təltif edilməsi haqqında Sərəncam imzalayıb.**

Sərəncama əsasən, Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarında səmərəli fəaliyyətinə görə ***Məmmədyarov Elmar Məhərrəm oğlu*** 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə, ***Əzimov Araz Böyükağa oğlu, Hacıyev Hikmət Fərhad oğlu, Həsənov Həsən Əziz oğlu, Həsənov Ramiz Ayvaz oğlu, Hüseynov Nadir Sabir oğlu, Xələfov Xələf Alı oğlu, Quliyev Hüseyn Rzaqulu oğlu, Quliyev Vilayət Muxtar oğlu, Məmməd-Quliyev Mahmud Əhməd oğlu, Orucov Hidayət Xuduş oğlu, Paşayev Hafiz Mir Cəlal oğlu, Polad Bülbüloğlu, Zeynalov Həsən Sultan oğlu*** 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə, bir qrup şəxs isə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Tərəqqi" medalı, "Dövlət qulluğunda fərqlənməyə görə" medalı, "Diplomatik xidmətdə fərqlənməyə görə" medalı ilə təltif ediliblər.

Diplomatik xidmət orqanları əməkdaşlarına diplomatik rütbələr verilib

Prezident İlham Əliyev Azərbaycan Respublikasının diplomatik xidmət orqanları əməkdaşlarına diplomatik rütbələrin verilməsi haqqında Sərəncam imzalayıb.



Sərəncama əsasən, Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının bir qrup əməkdaşına fövqəladə və səlahiyyətli səfir, birinci dərəcəli fövqəladə və səlahiyyətli elçi, ikinci dərəcəli fövqəladə və səlahiyyətli elçi diplomatik rütbələri verilib.

# Prezident İlham Əliyev Fərman Salmanovun xatirəsinin əbədiləşdirilməsi haqqında Sərəncam imzalayıb

Prezident İlham Əliyev Fərman Salmanovun xatirəsinin əbədiləşdirilməsi haqqında Sərəncam imzalayıb.

Sərəncamda qeyd edilir ki, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Qərbi Sibirin Tümen vilayətində nəhəng neft və qaz yataqlarını kəşf etmiş məşhur azərbaycanlı geoloq, görkəmli alim, geologiya-mineralogiya elmləri doktoru, Rusiya Elmlər Akademiyasının müxbir üzvü, Sosialist Əməyi Qəhrəmanı Fərman Qurban oğlu Salmanovun xatirəsini əbədiləşdirmək məqsədilə Azərbaycan Dövlət Neft və Sənaye Universitetində təhsil alan, xüsusi istedadı ilə fərqlənən 2 nəfər tələbə üçün "Fərman Salmanov adına təqaüd" təsis edilsin.

Nazirlər Kabinetinə tapşırılır ki, Şəmkir şəhərində Fərman Salmanovun heykəlinin ucaldılmasını təmin etsin; Şəmkir rayonunda təhsil aldığı ümumi təhsil müəssisəsinə Fərman Salmanovun adının verilməsini təmin etsin; bu Sərəncamın 1-ci hissəsi ilə təsis edilən adlı təqaüdün verilməsi qaydasını iki ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin; bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

## AVROPA İTTİFAQI ŞURASI PREZİDENTİNİN AZƏRBAYCANA SƏFƏRİ BAŞA ÇATIB



Avropa İttifaqı Şurasının Prezidenti Donald Tuskun Azərbaycan Respublikasına səfəri iyulun 9-da başa çatıb.

AZƏRTAC xəbər verir ki, Avropa İttifaqının bayrağının və Azərbaycan Respublikasının dövlət bayrağının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Avropa İttifaqı Şurasının Prezidenti Donald Tusku Azərbaycan Respublikası Baş Nazirinin birinci müavini Yaqub Eyyubov və digər rəsmi şəxslər yola salıblar.

*Donald Tusk:*

### Avropa İttifaqı və Azərbaycan ildən-ilə bir-birinə daha da yaxınlaşır



Azərbaycan adət-ənənələri və müasirliyi özündə cəmləşdirən, Şərqi və Qərbi əks etdirən təkrarolunmaz bir ölkədir.

AZƏRTAC xəbər verir ki, bu fikri Avropa İttifaqı Şurasının Prezidenti Donald Tusk özünün Tvitter hesabında yazıb.

Donald Tusk qeyd edib ki, Avropa İttifaqı və Azərbaycan ildən-ilə bir-birinə daha da yaxınlaşır. "Bu gün mən Avropa İttifaqının əməkdaşlığımızı daha da dərinləşdirməyə hazır olduğunu bir daha vurğuladım", - deyə o bildirib.

# Büdcənin sosialyönümlülüyü artır, sosial müdafiə gücləndirilir, yeni hədəflərə yol açılır

## Beynəlxalq maliyyə qurumları dövlətimizin pensiya və əməkhaqqı siyasətini yüksək dəyərləndirirlər





***2019-cu ilin fevralında keçirilən iqtisadi və sosial məsələlərlə bağlı müşavirədə "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Eyni zamanda, bizim maliyyə imkanlarımız buna imkan verir. Maliyyə imkanlarımızı biz əldə etmişik, biz yaratmışıq. Məhz aparılan islahatlar nəticəsində bizim gəlirlərimiz, büdcə gəlirlərimiz artır, artacaq və artmalıdır. Ona görə bir daha demək istəyirəm ki, bizim iqtisadi inkişafımız sosial məsələlərin həlli ilə nə qədər bağlıdır. Bu da təbiidir. Bizdə güclü iradə, güclü sosial siyasət var. Eyni zamanda, elan edilmiş və icra edilən ciddi iqtisadi və sosial islahatlar bizə imkan verir ki, əlavə maliyyə resursların məhz vətəndaşların rifah halının yaxşılaşmasına yönəldək" söyləyən dövlətimizin başçısı İlham Əliyev bu əminliyi də ifadə etmişdir ki, 2019-cu il sosial islahatlar ili olacaq.***

Ölkə Prezidentinin hər çıxışında bu reallıq da önə çəkilir ki, Azərbaycan özünü dünyaya sosial dövlət kimi təqdim edib. Təbii ki, bu uğurlu, təkmil sosial-iqtisadi siyasətin nəticəsidir. Yazılarımızda daim sosial dövlət anlayışının mahiyyətinə diqqət yönəldərək, təhlillər fonunda ölkəmizin bu sahədə böyük uğurlara imza atdığını, özünü sosial dövlət kimi təsdiqlədiyini aydın görürük. Dövlətimiz özünün bütün vətəndaşlarının iqtisadi və ictimai tərəqqisinə imkanlar yaradır. Nəticə etibarilə bir nəfərin inkişafı hamının inkişafının şərti kimi çıxış edir. Bu baxımdan sosial dövlət vətəndaşların yüksək rifahının təminatçısıdır". Əməkhaqlarının, pensiyaların artırılması müsbət dinamikanın göstəricisidir. Azərbaycanın sosial-iqtisadi uğurları beynəlxalq maliyyə qurumlarının hesabatlarında da öz əksini tapır və qarşıdakı dövr üçün proqnozlar açıqlanır. Belə ki, "Standard & Poor's" beynəlxalq reytinq agentliyinin hesabatında Azərbaycan iqtisadiyyatında növbəti dövrdə 3 faiz iqtisadi artımın proqnozlaşdırılması ölkəmizdə iqtisadi artım tempinin bu il daxil olmaqla gələcək illərdə qorunub saxlanacağından xəbər verir. Növbəti illərdə Azərbaycanda daha sürətli iqtisadi artımın əldə ediləcəyi gözlənilir. O baxımdan "Standard & Poor's" tərəfindən yüksək iqtisadi artım tempinin proqnozlaşdırılması birmənalı şəkildə məhz Azərbaycanda aparılan islahatların iqtisadi artıma birbaşa təsirindən xəbər verir. Makroiqtisadi stabilliyin qorunub saxlanılması həm də Azərbaycan üçün ÜDM-də artım tempinin qorunub saxlanılmasına, növbəti illərdə daha sürətli artımın əldə edilməsinə zəmin yaradır.

"Fitch" beynəlxalq reytinq agentliyinin reytinqində Azərbaycanda sosial, siyasi stabilliyin uzunmüddətli dövrdə qorunub saxlanacağı bildirilir. Bu təşkilat tərəfindən ölkəmizdə həm bu il iqtisadi artımın proqnozlaşdırılması, həm də Azərbaycanın valyuta ehtiyatlarının məhz bu kontekstdən növbəti illərdə artımın proqnozlaşdırılması və xüsusən Cənub Qaz Dəhlizi, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin istifadəyə verilməsi Azərbaycanın dövlət gəlirlərinə birbaşa təsir göstərən amillərdən hesab olunur. Qurumun hesabatı növbəti dövrlərdə ölkəmizdə stabilliyin qorunub saxlanılmasından xəbər verir. Bu da ölkəmizin kredit reytinqinə və bütövlükdə qeyri-neft sektoruna daha çox investisiya cəlb edilməsinə zəmin yaradacaq.

Bu məqamı da xüsusi vurğulamaq lazımdır ki, Azərbaycanın ev sahibliyi etdiyi tədbirlərdə günün əsas çağırışlarından olan yoxsullluqla mübarizə hər zaman önə çəkilir, ölkəmizin bu sahədəki təcrübəsi nümunə göstərilir. Son 15 ildən artıq dövrdə yoxsulluq həddinin 49 faizdən 5 faizə enməsi təbii ki, uğurlu sosial-iqtisadi islahatların nəticəsidir. Prezident İlham Əliyev bildirir ki, ən ucqar kəndlər də iqtisadi inkişafı öz həyat tərzində hiss etməlidir: "Yalnız bütün əhalimiz özünün daha yaxşı yaşadığını hiss etdiyi bir vaxtda, hökumətimiz vəzifəsini yerinə yetirmiş hesab edə bilər. Budur, bizim məqsədimiz-vətəndaşlara eyni şərait yaratmaq." Regionların, həmçinin Bakı və Bakıətrafı qəsəbələrin sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarının uğurlu icrası dövlətimizin başçısı İlham Əliyevin rayonlara səfəri çərçivəsində açılışı və təməlqoyma mərasimləri keçirilən sosial obyektlərin say tərkibindən də daha aydın görünür. Ölkə Prezidenti bildirir: "Regionların inkişafı daim diqqət mərkəzində olmuşdur... Mən hər il bölgələrə səfərlər edirəm. Bu, əlbəttə ki, həm mənim üçün çox əhəmiyyətlidir, çünki mən yerlərdə vəziyyətlə tanış oluram və müvafiq göstərişlər verirəm. Bilirəm ki, bu, bölgələrdə yaşayan vətəndaşlar üçün də çox önəmlidir. Əlbəttə ki, bu, nizam-intizamın möhkəmləndirilməsi üçün də çox önəmlidir." Bu rəqəmi də açıqlamaq yerinə düşər ki, Dövlət proqramlarının uğurlu icrası nəticəsində son 15 ildə iki milyona yaxın yeni iş yeri yaradılıb.

"İş yerlərinin yaradılması Azərbaycanda daimi proses olmalıdır" söyləyən dövlətimizin başçısı İlham Əliyev bildirir ki, bu il 10 milyonuncu vətəndaş dünyaya gəlib. Artıq biz 10 milyonuq: "Bu, tarixi nailiyyətdir. Əlbəttə ki, bu, ölkəmizi gücləndirir, potensialımızı artırır. Ancaq, eyni zamanda, artan əhali infrastruktur layihələrinin, iş yerlərinin yaradılması üçün əsas şərtdir. Çünki uşaq bağçaları, məktəblər tikilməlidir, infrastruktur layihələri icra edilməlidir. Sovet vaxtında yaradılmış infrastruktur ovaxtkı əhaliyə hesablanmışdı. İndi Bakı şəhəri böyüyüb, əhalisi artıb, rayonlarda da əhali artıb. Ona görə bu məsələyə biz daim diqqət göstərməliyik." Bu inam da ifadə olunur ki, görüləcək işlər, yeni, infrastruktur layihələrinin, sosial proqramların icrası nəticəsində yoxsulluq səviyyəsi daha da düşəcək və 15 il bundan əvvəl qarşıya qoyulan vəzifə təmin ediləcək- Azərbaycanda yoxsulluq tamamilə aradan götürülməlidir: "Növbəti illərdə biz daha çox şaxələndirməyə diqqət yetirməliyik və bizim hökumətimizin diqqət yönəltdiyi sahələr müasir texnologiya və kənd təsərrüfatıdır."

Sosial mənzillərin inşası istiqamətində atılan addımlar, özünüməşğulluğun təminatına yönələn "ABAD" mərkəzlərinin yaradılması və uğurlu fəaliyyəti də insan amilinə verilən dəyərdən qaynaqlanır. Bu kimi addımlar dövlətimizin başçısı İlham Əliyevin 7 aprel 2016-cı il tarixli "Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" Sərəncamından və 23 sentyabr 2016-cı il tarixli "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində "ABAD" publik hüquqi şəxsin yaradılması haqqında" Fərmanından irəli gələn vəzifələrin uğurlu icrasıdır. Artıq DOST mərkəzləri də fəaliyyət göstərir. Məqsəd şəffaflığın təmin olunması ilə yanaşı, insanların rahatlığını təmin etməkdir.

Ölkə Prezidenti İlham Əliyev, eyni zamanda, müharibədən, işğaldan əziyyət çəkən soydaşlarımıza diqqət və qayğının həyata keçirilən siyasətin əsas tərkib hissələrindən olduğunu bildirir. Son illərdə 100-ə yaxın qəsəbə salınıb, minlərlə köçkün evlərlə, mənzillərlə təmin edilib. Statistikaya əsasən, son 15 ildə məcburi köçkünlərə yemək xərci üçün verilən aylıq müavinət 4 dəfə, kommunal xidmətlərə görə vəsaitin məbləği 4,5 dəfə artırılıb. Sosial müdafiənin yaxşılaşdırılması istiqamətində atılan addımların nəticəsi olaraq məcburi köçkünlər və qaçqınlar arasında yoxsulluq azalaraq 75 faizdən 12 faizə enib. Dövlətimizin başçısı İlham Əliyevin son "Məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin artırılması haqqında" Sərəncamı bu diqqət və qayğının davamlılığının göstəricisidir.

Cari ilin arxada qalan aylarında imzalanan Fərman və sərəncamlara diqqət yetirək. Dövlətimizin başçısı İlham Əliyev iyun ayında əhalinin rifahının yüksəldilməsi məqsədilə növbəti sosial paketi təsdiq etdi. İmzalanan 17 Sərəncam ölkədə sosial rifahın yüksəldilməsinin həyata keçirilən siyasətin prioritet istiqaməti olduğunu bir daha təsdiq etdi. Sosial ədalət prinsiplərinin daha da möhkəmləndirilməsi məqsədilə minimum əməkhaqqının məbləği 40 faiz artırılaraq 250 manata çatdırılıb. Minimum əməkhaqqının artımı 950 minədək vətəndaşı əhatə edəcək.

Onu da qeyd edək ki, 2019-cu ilin əvvəlində Prezident İlham Əliyevin müvafiq sosial paket çərçivəsində imzaladığı qanunvericilik aktları 3 milyona yaxın insanın sosial müdafiəsinin gücləndirilməsi sahəsində inqilabi addım oldu. Bu məqsədlər üçün 1,5 milyard manat vəsait ayrılmışdı.

"Bu siyasət davam etdiriləcək" söyləyən dövlətimizin başçısı İlham Əliyev iqtisadi imkanların artırılmasını vacib amil kimi diqqətə çatdırır. Beynəlxalq maliyyə qurumlarının proqnozlarında da bu statistika xüsusi yer tutur ki, enerji layihələrinin uğurlu icrası nəticəsində dövlət büdcəsinə milyardlarla vəsait daxil olacaq ki, bu da öz növbəsində büdcənin sosialyönümlülüyünü artıracaq, əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində daha mühüm tədbirlər həyata keçiriləcək. Hər dövrün çağırışlarının lazımi səviyyədə yerinə yetirilməsi yeni-yeni hədəflərin müəyyənləşdirilməsini bir tələb kimi ortaya qoyur. 2020-ci ilə qədər olan dövr üçün əsas hədəflər inkişaf etmiş ölkələr sırasında addımlamaq, yüksək gəlirli ölkəyə çevrilmək, bu günə qədər 3 dəfədən çox artan ümumi daxili məhsulun daha iki dəfə artırılmasına nail olmaqdır.

**Yeganə Əliyeva,**
***"İki sahil"***

*“Əl Bəyan Əl-Yaum” qəzeti:*

## Azərbaycan dünyanın ən sürətlə inkişaf edən ölkələrindən birinə çevrilib


بيان اليوم مستجدات 4

الذكرى الـ 100 للدبلوماسية الأذربيجانية

**Mərakeşin “Əl Bəyan Əl-Yaum” qəzetində Azərbaycanın Mərakeşdəki səfiri Oktay Qurbanovun müəllifi olduğu “Azərbaycan diplomatiyasının 100 illik yubileyi” başlıqlı məqalə dərc edilib.**

AZƏRTAC xəbər verir ki, məqalədə 2019-cu ildə Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının 100 illik yubileyinin qeyd olunduğu diqqətə çatdırılır. Yazıda Xarici İşlər Nazirliyinin yaranma tarixi, inkişaf mərhələləri, habelə müsəlman Şərqində ilk dünyəvi demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin ilk Xarici İşlər naziri Məhəmmədhəsən Hacınskinin həyatı barədə məlumat verilib. Qeyd olunur ki, bu gün Azərbaycanın xarici siyasəti çox çevikdir və dinamikdir. Ümummilli lider Heydər Əliyevin məqsədyönlü və uzaqgörən siyasəti nəticəsində Azərbaycan hərtərəfli və dinamik inkişaf yoluna qədəm qoydu, ölkəmizin davamlı sosial-iqtisadi inkişafı təmin edildi. Azərbaycanın yeri və rolu nəzərə alınmadan regionda hər hansı iri layihəni həyata keçirmək mümkün deyil.

Məqalədə Azərbaycanın xarici siyasətinin uğurları barədə bəhs edilərək, ölkəmizin 2006-cı ildə BMT-nin İnsan Hüquqları Şurasının, 2012-2013-cü illər üzrə BMT-nin Təhlükəsizlik Şurasının üzvü seçildiyi, İslam Əməkdaşlıq Təşkilatı, habelə Qoşulmama Hərəkatı çərçivəsində vacib rolu qeyd olunur.

Müəllif, həmçinin vurğulayır ki, Ermənistanın ölkəmizə qarşı təcavüzü və nəticədə Dağlıq Qarabağ bölgəsi və ətraf yeddi rayonu daxil olmaqla, Azərbaycan ərazisinin 20 faizinin işğalı və bir milyondan çox azərbaycanlının öz doğma torpaqlarından didərgin salınması Azərbaycanın ən çətin, ən ağrılı problemidir. Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərində maddi-mədəniyyət və dini abidələrin dağıdılması, talan və təhqir edilməsi, mənimsənilməsi kimi məqsədli siyasət həyata keçirir. Münaqişə Azərbaycanın ərazi bütövlüyü və beynəlxalq tanınmış sərhədləri çərçivəsində həllini tapmalıdır. Bu mövqe beynəlxalq hüququn norma və prinsipləri, BMT Nizamnaməsi, Helsinki Yekun Aktı və münaqişənin nizamlanması istiqamətində qəbul edilmiş çoxsaylı beynəlxalq sənədlərə əsaslanır.

Həmçinin yazıda 1991-ci ildə Azərbaycanın müstəqilliyinin bərpa olunmasından sonra ölkəmizin qoşulduğu beynəlxalq təşkilatlar və əhəmiyyətli beynəlxalq müqavilələr, konvensiyalar barədə məlumat verilir.

Müəllifi hər bir Azərbaycan vətəndaşının qəlbində yaşayan ümummilli lider Heydər Əliyevin ölkəmizin müasir tarixində misilsiz roluna xüsusi diqqət ayırıb. Bildirib ki, Ulu Öndərin rəhbərliyi ilə Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası üçün vacib rol oynayan neft strategiyası genişləndirilib, ölkənin infrastrukturu yenidən qurulub və bərpa edilib.

Məqalədə müasir dünyada qadınların sosial-siyasi həyatda oynadıqları rol, ictimai fəallıqları xüsusi qeyd olunaraq, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın fəaliyyəti barədə məlumat verilir. Bu fəaliyyətin beynəlxalq ictimaiyyət tərəfindən də yüksək dəyərləndirildiyi ifadə olunur. Mehriban xanım Əliyevanın UNESKO və İSESCO-nun xoşməramlı səfiri adına layiq görüldüyü vurğulanır.

“Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu siyasi-iqtisadi kurs özünü doğruldub. Bu gün həmin strateji istiqamət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bunun nəticəsində Azərbaycan yeni dövrə qədəm qoyaraq özünün siyasi, iqtisadi müstəqilliyini qoruyub saxlamağa müvəffəq olaraq, son illər ərzində bütün sahələrdə böyük tərəqqi baş verib, Azərbaycan dünyanın ən sürətlə inkişaf edən ölkələrindən birinə çevrilib”, - deyə müəllif vurğulayıb.

# Dahi şəxsiyyət



**Əlli ilə yaxın müddətdə Azərbaycana rəhbərlik etmiş şəxslər yalnız “yuxarı”nın tapşırıqlarını yerinə yetirmiş, respublikanın inkişafı barədə düşünməmişdilər. Ancaq Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 14 iyul 1969-cu il tarixli plenumundan sonra durğunluğa və astagəl siyasətə son qoyuldu. Cəmi bir neçə gündən sonra MK-nın yeni birinci katibinin başlatdığı kadr islahatı bütün ölkəyə səs saldı. Heydər Əliyev yüksək çinli şəxslərin ciddi müqavimətinə və təzyiqlərə baxmayaraq tutduğu yoldan geri çəkilmədi.**

14 iyul plenumundan çox keçməmiş bütün SSRİ-də və dünyanın bir çox ölkələrində məlum oldu ki, Azərbaycanda fəal siyasətçi, mahir diplomat, yenilikçi, iradəli, təşəbbüskar, işgüzar, yorulmaz və fenomen yaddaşa malik bir rəhbər hakimiyyətə gəlib. Bir neçə ildən sonra isə başa düşdülər ki, onun idarəetmə bacarığı və yüksək intellekti bir müttəfiq respublikanın rəhbərliyinə sığışmır. Çünki onların gözlərinin qarşısında geridə qalmış aqrar respublika olan Azərbaycan çox qısa müddətdə inkişaf etmiş sənaye respublikasına çevrilmişdi. Artıq imperiya hakimiyyətinin yuxarı eşalonunda- Mərkəzi Komitənin Siyasi Bürosunda dərk etmişdilər ki, Heydər Əliyev SSRİ-ni onların hər birindən yaxşı idarə edə bilər. Çünki dövlət idarəetməsi üçün vacib olan bütün bacarıq, keyfiyyət və qabiliyyətlər Heydər Əliyev şəxsiyyətində cəmləşmişdi.

SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri Andrey Qromıkonun oğlu Anatoli Qromıko Bakıya səfərində yazırdı ki, Sovet yazıçı və jurnalistlərinin bir qrupu Bakıda ezamiyyətdə olanda bir gün axşam Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyev onları qəbul edib. Yazıçı xatırlayır ki, Heydər Əliyev bütün gün gərgin iş rejimində çalışmasına baxmayaraq yorğun deyildi və gümrah görünürdü. Heydər Əliyev harasa tələsdiyini büruzə verməyərək ətraflı söhbətdən sonra gecədən xeyli keçmiş ayağa qalxıb bizimlə xudahafizləşdi. Bildirdi ki, məhsul təhvil verildiyi üçün işləri çoxdur və hələ işlərin gedişinə nəzarət etməlidir. Sonra Heydər Əliyev cəld addımlarla maşına əyləşdi. Onda mənim fikrimdən dərhal keçdi ki, Sovet İttifaqına bax belə rəhbər lazımdır.

SSRİ Nazirlər Soveti sədrinin birinci müavini, Siyasi Büro üzvü vəzifələrində işləyərkən Heydər Əliyevin bütün rəhbərlik keyfiyyətləri özünü parlaq surətdə göstərdi. Kremldə bundan fərhlənənlər olsa da, bədxahlar və paxıllıq çəkənlər daha çox idi.

Ermənilər və onlara yaxın dairələr başda SSRİ rəhbəri Mixail Qorbaçov olmaqla Heydər Əliyevə qarşı sivil mübarizə deyil, qatı düşmən münasibəti bəsləyirdilər. Bunların arasında Qorbaçovun arvadı Raisa Qorbaçova, köməkçisi David Şahnazaryan, MK Baş katibinin iqtisadi məsələlər üzrə məsləhətçisi, akademik Abel Aqanbekyan, akademik Andrey Saxarovun dəstəsi, deputat Qalina Starovoytova, ümumiyyətlə, SSRİ-də və xarici ölkələrdə yüksək postlar tutan bütün ermənilər və onların himayəçiləri Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini Heydər Əliyevə qarşı ləkələyici faktlar qondarmağa sıradan çıxarmağa çalışırdılar. Lakin bizdə deyildiyi kimi, it hürür, karvan isə öz əzəmətli addımları ilə keçib gedirdi.

Bununla belə prosesə ciddi hazırlaşan və əlverişli fürsət gözləyən ermənilər Azərbaycandan ərazi iddialarına Heydər Əliyev Moskvada tutduğu postlardan uzaqlaşandan sonra start verdilər. Ermənilər təbliğat maşınlarını işə salaraq Heydər Əliyev barədə həqiqətə qətiyyən uyğun olmayan məqalələr dərc etdirir, onu xalqın gözündən salmağa cəhd göstərirdilər. Təəssüf ki, düşmənlərimizin dəyirmanına su tökən bəzi satqınlarımız ermənilərə dəstək verərək Moskva mətbuatına dahi Heydər Əliyevi “ifşa” edən materiallar göndərirdilər.

Sumqayıt hadisələrindən az sonra Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsinin sabiq birinci katibi Karen Dəmirçiyan İrəvandakı Teatr meydanındakı izdihamlı mitinqdə demişdi: “Mənim əziz millətim! Siz çox ağır və həlli çox müşkül bir işə qatılmısınız. Düzdür, ölkənin indiki rəhbəri Mixail Qorbaçov bizim adamdır. O bizim arxamızdadır. Amma unudursunuz ki, türklərin Heydər Əliyev adlı bir böyük oğlu var. O, neçə ki həyatdadır, siz Azərbaycandan heç nə qopara bilməyəcəksiniz. Mən onu yaxşı tanıyıram. Biz uzun illər bütün dünya ermənilərinin nə qədər gücü varsa, onu məhv eləmək üçün səfərbər etdik. Amma o, çekist məharəti ilə hamısından sıyrılıb qurtara bildi, bizim qurduğumuz bütün planları alt-üst etdi.

Doğrudur, Mixail Sergeyeviçin əli ilə biz onu Kremldən, Siyasi Bürodan uzaqlaşdırdıq. Amma onu məhv eləyə bilmədik. Onu məhv eləmək sizə asan görünməsin. Baxarsınız, onu yenidən hakimiyyətə gətirəcəklər. O zaman bütün havadarlarımızın səyi ilə nə qazanmışıqsa, gec və ya tez hamısını itirəcək, axırda məğlub olacağıq. Heydər Əliyevlə mübarizə aparmaq çox çətindir, bu qeyri-mümkün bir işdir.”

Türklərə sonsuz nifrət bəsləyən Moskvadakı vəzifəli erməni millətçiləri böyük Heydər Əliyevi “Kremldə türk paşası” və ya “Heydər paşa” adlandırırdılar.

Qanımızı içməyə hazır olan ən böyük düşmənlərimizin rəhbərləri onu belə qiymətləndirirdilər. Çünki Heydər Əliyev SSRİ-nin ən geridə qalmış aqrar respublikası olan Azərbaycanı cəmi on dörd ildə nəhəng imperiyanın iqtisadi cəhətdən inkişaf etmiş respublikasına çevirməyi bacarmışdı. O, bir çox xalqların tanımadığı Azərbaycanı dünya miqyasında tanıtmışdı. Bacarıqlı azərbaycanlı kadrların Moskvada yüksək vəzifələrə irəli çəkilməsinə nail olmuşdu. Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın sürətli inkişafı dostların da, düşmənlərin də gözləri qarşısında baş verirdi. Lakin təəssüf ki, Heydər Əliyevin dühasına qısqanclıq göstərən bəzi başabəla başbilənlərimiz ermənilərin havadarlarının məkrli hiylələrinə aldanaraq Heydər Əliyevin əleyhinə Moskvada təşkil edilmiş “Əliyevşina” adlandırılan iyrənc “hərəkata” qoşuldular.

Böyük ingilis mütəfəkkiri Conatan Sviftin dahilər haqqında belə bir hikmətli fikri var: “O zaman ki, dünyada həqiqi dahi yaranır, onu belə bir əlamətə görə müəyyən etmək olar. Bütün kütbeyinlər onun əleyhinə birləşir.” Həmin kütbeyinlər Heydər Əliyevi hətta tikib-qurduğu və abadlaşdırdığı Bakıya belə buraxmadılar. Əksinə, əgər onlar özləri xalqla bərabər mahir idarəetmə ustası, zəngin dövlətçilik təcrübəsi olan Heydər Əliyevi hakimiyyətə dəvət etsəydilər, onda Azərbaycan bugünkü Dağlıq Qarabağ problemi ilə üzləşməzdi, otuz min şəhid verməzdik, bu qədər müharibə əlilimiz olmazdı, torpaqlarımız işğala məruz qalmazdı, indi təmas xəttinə yaxın yaşayış məntəqələrimizdə dinc əhalimiz evində gözlənilməz ölümlə dünyasını dəyişməzdi.

Nəhayət, Əbdürrəhman Vəzirovun, Ayaz Mütəllibovun xəyanətləri, Əbülfəz Elçibəy-İsa Qəmbər hakimiyyətinin bacarıqsızlığı nəticəsində müsibətlər çəkən xalq ayağa qalxaraq Heydər Əliyevi qətiyyətlə tələb etdi. Hər zaman doğma xalqının hər bir çağırışını qəbul edən Ulu Öndər Naxçıvandan Bakıya gələrək Ali Sovetin Sədri, payızda isə Azərbaycan Respublikasının Prezidenti seçildi.

Əzəmətli lider qısa zamanda böyük işlər gördü. İlk növbədə ölkəni iflic vəziyyətə salan müharibənin dayandırılmasına və atəşkəs əldə edilməsinə nail oldu. Azərbaycan dövlət müstəqilliyini möhkəmləndirdi, Avropaya və ümumiyyətlə, dünyaya inteqrasiya etdi, özünə çoxlu tərəfdaş qazandı. İqtisadiyyatımız ölü nöqtədən çıxarılıb inkişafa istiqamətləndirildi, cəmiyyətin bütün sahələrində köklü islahatlar aparıldı, ümumxalq səsverməsi ilə demokratik Konstitusiya qəbul edildi, hüquqi, dünyəvi dövlət bərqərar olundu. Bütün bunlar Azərbaycanın imicini bir dövlət kimi yüksəldirdi. ABŞ Prezidenti Klinton 1998-ci ildə 75 yaşının tamam olması münasibətilə Heydər Əliyevə göndərdiyi təbrik məktubunda uzaqgörənliklə yazırdı: “Sizin rəhbərliyinizlə Azərbaycan firavan gələcəyinin bünövrəsini qoymaqdadır.”

Zaman göstərdi ki, ABŞ Prezidenti öz fikirlərində tamamilə haqlı imiş.

Ulu Öndərimizin qurduğu Azərbaycan dövləti Prezident İlham Əliyev tərəfindən dinamik inkişaf yoluna çıxarıldı, ölkəmizin mövqeləri dünyada daha da möhkəmləndirildi. İndi ölkəmiz beynəlxalq arenada söz sahibidir, regionumuzda heç bir iri layihə onun iştirakı olmadan həyata keçirilmir. Azərbaycan cəmi 28 illik müstəqilliyə malik olmasına baxmayaraq sürətlə inkişaf edərək iqtisadiyyatı və hərbi qüdrəti ilə dünyanın güclü dövlətləri sırasına yüksəlib.

**Vəli İlyasov,**
***“İki sahil”***

# Naxçıvanda təhlükəsizliyin təmin olunması ilə bağlı müşavirə keçirilib



**İyulun 9-da Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətində "Naxçıvan Muxtar Respublikasında təhlükəsizliyin təmin olunması sahəsində görülən işlər və qarşıda duran vəzifələr barədə" müşavirə keçirilib.**

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirədə iştirak edib.

Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Nurlan Pənahov çıxış edərək deyib ki, xidmətin fəaliyyətinin təşkili və maddi-texniki bazasının gücləndirilməsi qarşıya qoyulmuş vəzifələrin uğurla yerinə yetirilməsinə imkan verir. Sovetlər Birliyi dövründə muxtar respublikanın təhlükəsizlik orqanları çətin şəraitdə fəaliyyət göstərirdilər. Lakin bu gün muxtar respublikada aparılan geniş quruculuq işləri Dövlət Təhlükəsizliyi Xidmətini, eləcə də xidmətin şəhər və rayon idarələrini də əhatə edib, müasir iş şəraiti yaradılıb, əməkdaşların sosial-məişət şəraiti yaxşılaşdırılıb. Nurlan Pənahov 2019-cu ilin ötən dövründə muxtar respublikada təhlükəsizliyin təmin olunması sahəsində görülən işlərdən danışıb, yaradılan şəraitə və göstərilən yüksək etimada görə kollektiv adından Ali Məclisin Sədrinə minnətdarlıq edib.

Naxçıvan Muxtar Respublikası Xarici Kəşfiyyat Xidmətinin rəisi Fariz Bağırov çıxış edərək deyib ki, 2016-cı ildə muxtar respublikada Xarici Kəşfiyyat Xidməti yaradılıb, ötən dövrdə xidmət fəaliyyətin günün tələbləri səviyyəsində qurulması üçün ardıcıl tədbirlər görülüb. Yeni inzibati binanın istifadəyə verilməsi, maddi-texniki bazanın gücləndirilməsi verilən tapşırıqların uğurla yerinə yetirilməsinə şərait yaradıb. Bütün bunların nəticəsidir ki, muxtar respublikada təhlükəsizlik təmin olunub. Fariz Bağırov xidmət tərəfindən həyata keçirilən tədbirlər barədə məlumat verib, kollektiv adından minnətdarlıq edərək bundan sonra da qarşıya qoyulan vəzifələrin icrasında səylə çalışacaqlarını bildirib.

Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Culfa Rayon İdarəsinin rəisi Nəsimi Abbaslı deyib ki, bu gün muxtar respublikada sabitlik təmin olunub, təhlükəsizlik və vətəndaş həmrəyliyi davamlı xarakter alıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirədə çıxış edərək deyib: Bu il ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyinin 50 illiyi tamam olur. Dahi şəxsiyyətin siyasi və dövlətçilik fəaliyyətində xüsusi xidmət orqanlarında çalışdığı illər, bu sahənin inkişafı üçün həyata keçirdiyi tədbirlər xüsusi yer tutur. Bu gün əminliklə demək olar ki, Azərbaycan dövlətçiliyinin mühüm sahəsi olan xüsusi xidmət orqanlarının formalaşması və inkişafı Ümummilli Liderimizin adı ilə bağlıdır. Ötən əsrin 60-cı illərində Ulu Öndər Sovetlər Birliyinin bütün siyasi-ideoloji manevrələrinə baxmayaraq rəhbərlik etdiyi təhlükəsizlik orqanlarında milli kadrların önə çəkilməsinə nail olmuş, bununla da xalqımızın milli özünüifadəsinə hərtərəfli şərait yaratmışdır. Ümummilli Liderin siyasi fəaliyyətinin Naxçıvan dövründə də təhlükəsizlik orqanlarında işin təşkili əsas götürülmüş, 1992-ci il sentyabrın 20-də Ali Məclisin qərarı ilə Naxçıvan Muxtar Respublikasının Milli Təhlükəsizlik Nazirliyi yaradılmışdır. Müstəqillik illərində Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında təhlükəsizlik orqanlarının maddi-texniki bazası gücləndirilmiş, müasir xidmət şəraiti yaradılmış, kadr potensialı təkmilləşdirilmişdir.

Ali Məclisin Sədri deyib: Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 14 dekabr tarixli Fərmanı ilə dövlət idarəetmə strukturunda aparılan islahatlara uyğun olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 18 dekabr tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, 2016-cı il 21 yanvar tarixli Fərmanı ilə Xarici Kəşfiyyat Xidməti yaradılmış və əsasnamələri təsdiq edilmişdir. Əsasnamələrə uyğun olaraq Dövlət Təhlükəsizliyi Xidməti əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyətini, Xarici Kəşfiyyat Xidməti isə kəşfiyyat fəaliyyətini həyata keçirir. Yaşadığımız dövr, dünyada baş verən proseslər milli təhlükəsizliyin təmin olunmasını əsas vəzifələr sırasına çıxarmışdır. Ərazi bütövlüyünün və ictimai-siyasi sabitliyin pozulması, separatçılıq, etnik, dini və siyasi ekstremizmin yayılması, ölkənin daxili işlərinə müdaxilə, beynəlxalq terrorçuluq, dövlət sirrinin əldə olunmasına olan cəhdlər və bu kimi digər fəaliyyətlər hər bir ölkə üçün əsas təhdidlər sırasındadır. Ona görə də kəşfiyyat və əks kəşfiyyat sahəsində işin düzgün təşkili birbaşa dövlətin və xalqın təhlükəsizliyinə zəmanət verir.

Ali Məclisin Sədri deyib: Naxçıvan Muxtar Respublikası strateji mövqedə yerləşir. İşğalçı ölkə ilə sərhədin olması, ehtimal olunan təhdid və risklər təhlükəsizlik sahəsində tədbirləri genişləndirməyi zəruri edir. Ona görə də muxtar respublikanın xüsusi xidmət orqanları müasir dövrün təhdidlərini nəzərə almaqla qabaqlayıcı tədbirlər görməli, təhlükəsizliyin tam təmin olunması üçün fəaliyyətlərini gücləndirməlidirlər. Xarici Kəşfiyyat Xidməti muxtar respublikada siyasi, iqtisadi, sosial, hərbi, elmi-texniki, informasiya və digər sahələrdə dövlətin maraqlarının müdafiəsi ilə bağlı məlumatların əldə edilməsinə və təhlilinə yönəlmiş fəaliyyətini daha da gücləndirməlidir. Bu zaman xarici dövlətlərin xüsusi xidmət orqanlarının, cinayətkar qrupların və ayrı-ayrı şəxslərin dövlət maraqlarına qarşı yönəlmiş niyyətləri, planları barədə məlumatlar əldə edilməli, təhlükəsizliyə real və potensial təhdidlər proqnozlaşdırılaraq ümumiləşdirmələr aparılmalıdır.

Ali Məclisin Sədri tapşırıb ki, Dövlət Təhlükəsizliyi Xidməti Naxçıvan Muxtar Respublikasında təhlükəsizliyin təmin edilməsi üçün əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyətinin səmərəliliyini artırmalıdır. Xarici dövlətlərin xüsusi xidmət orqanlarının, cinayətkar qrupların və ayrı-ayrı şəxslərin dövlət müstəqilliyinə, ərazi bütövlüyünə, konstitusiya quruluşunun əsaslarına, iqtisadi, elmi-texniki, müdafiə potensialına və digər milli maraqlara zərər vurulmasına yönəlmiş kəşfiyyat, terror-təxribat və digər pozuculuq fəaliyyəti vaxtında aşkarlanmalı, real və potensial təhdidlər proqnozlaşdırılmalı, adekvat tədbirlər görülməlidir. Muxtar respublikada ictimai həmrəyliyə qarşı yönəlmiş hərəkətlərin qarşısı alınmalı, xarici xüsusi xidmət orqanlarının texniki kəşfiyyatına qarşı əks tədbirlər həyata keçirilməlidir.

Ali Məclisin Sədri deyib: Xüsusi xidmət orqanlarının vacib vəzifəsi dövlətin möhkəmlənməsinə, müdafiə potensialının yüksəlməsinə və sosial-iqtisadi inkişafın sürətlənməsinə xidmət etməkdir. Bunun üçün isə vətənpərvər, savadlı, dünyagörüşlü kadrlara ehtiyac vardır. Ona görə də xüsusi xidmət orqanlarında vətənpərvərliyi, dövlətinə sədaqəti ilə seçilən, milli maraqları üstün tutan kadrlar işə qəbul olunmalıdır. Gənclik böyük potensialdır. Onun düzgün istiqamətləndirilməsi, təhsilli, vətəninə və xalqına bağlı böyüdülməsi qarşıda duran əsas vəzifələrdir. Bu işdə xüsusi xidmət orqanlarının da üzərinə mühüm vəzifələr düşür. Gənclərin yad təsirlərdən qorunması diqqətdə saxlanılmalı, maarifləndirmə işləri və qabaqlayıcı tədbirlər görülməli, müvafiq dövlət qurumları ilə birlikdə fəaliyyət təşkil olunmalıdır. Ölkəmiz və muxtar respublika barədə əsassız informasiyaların yayılmasının qarşısı alınmalı, həmin informasiyaları yayan şəxslər müəyyənləşdirilərək zərərsizləşdirilməlidir.

"Muxtar respublikanın xüsusi xidmət orqanlarının əməkdaşları bundan sonra da yaradılan şəraitdən, maddi-texniki bazadan səmərəli istifadə etməli, xidmət günün tələbləri səviyyəsində qurulmalıdır. İctimai asayişin, sabitliyin qorunmasında digər dövlət qurumları ilə də əməkdaşlıq davam etdirilməli, milli maraqlarımıza qarşı yönələn istənilən təhdidin aşkarlanması və qarşısının alınması üçün birgə tədbirlər görülməlidir", - deyən Ali Məclisin Sədri bu vəzifələrin icrasında təhlükəsizlik orqanlarının əməkdaşlarına uğurlar arzulayıb.

Sonra Ali Məclisin Sədri Dövlət Təhlükəsizliyi Xidmətinin kitabxanasında yaradılan şəraitlə maraqlanıb. Bildirilib ki, kitabxana fondu zənginləşdirilib, ümummilli liderimiz Heydər Əliyevin dövlətçilik fəaliyyətindən, eləcə də təhlükəsizlik orqanlarına rəhbərliyi dövründən bəhs edən guşə yaradılıb, müvafiq ədəbiyyatlar qoyulub.

*Şəkili şəbəkə ustası:*

## Xan Sarayının bərpasında iştirak etdiyimə görə qürur hissi keçirirəm



Qədim və zəngin tarixə, yüksək mədəniyyətə malik olan Şəki şəhəri tarixən sənətin və sənətkarlığın yüksək səviyyədə inkişaf etdiyi ərazilərdən biri olub. Şəki sənətkarlarının yüzillər boyunca əldə etdikləri təcrübə nəsildən-nəslə keçməklə zəmanəmizədək gəlib çatıb. El sənətkarlarının misilsiz sənət ənənələrini davam etdirən şəkili sənətkarların fədakar əməyi sayəsində bu qədim şəhərdə zəngin tarixi-mədəni irs yaranıb.

Bakıda keçirilən UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında Azərbaycanın "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi"nin UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi şəkili sənətkarlar tərəfindən də böyük razılıq hissi ilə qarşılanıb.

Şəkinin tanınmış şəbəkə ustası Hüseyn Hacımustafazadə sevinc hisslərini AZƏRTAC-ın bölgə müxbiri ilə bölüşüb: "31 ildir ki, şəbəkə sənəti ilə məşğul oluram. UNESKO-nun bu qərarı biz sənətkarları da çox sevindirib. Xalqımız bu əlamətdar hadisəni bayram əhval-ruhiyyəsi ilə qeyd edir. Bu tarixi hadisə mənim üçün isə ikiqat sevinclidir. Çünki mən 2002-2004-cü illərdə Xan Sarayının şəbəkə işlərinin bərpasında yaxından iştirak etmişəm. Mənim üçün qürurverici haldır ki, bərpa etdiyimiz bu abidə artıq UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilib. Mən bu işdə əməyi olan bütün insanlara, xüsusilə də Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya Şəki sənətkarları adından minnətdarlığımı bildirirəm".

Xatırladaq ki, Hüseyn Hacımustafazadə 2002-2004-cü illərdə Almaniyanın "Den Kmalkoh Ege Meckhembelq GMB" şirkəti ilə bağlanmış müqavilə əsasında Şəki xanları sarayının bərpasında yaxından iştirak edib, sarayın qapı və pəncərələrinin, tavanın böyük bir hissəsinin bərpasını yüksək ustalıqla başa çatdırıb. Hüseyn ustanın sözlərinə görə, şəbəkə Azərbaycanın bütün bölgələrində geniş yayılsa da, ən incə, zərif və gözəl şəbəkə məhz Şəki xanlarının sarayındadır. Sadə şəbəkənin bir kvadratmetrinə 5 min xırda detal düşdüyü halda, Xan Sarayındakı pəncərə şəbəkələrinin hər kvadratmetrinə 14 minədək detal hissə və rəngli şüşə düşür. Bu, o deməkdir ki, hissələr o qədər kiçikdir ki, əl ilə, barmaqla tutub yığmaq mümkün deyil və mütləq xüsusi maqqaşdan istifadə olunmalıdır.

## O, ürəklərdə yaşayır



Köksündə əsl qəhrəman ürəyi döyünən lerikli balası Etiqad Balaxan oğlu Hacıyev üçün Vətən eşqi hər şeydən əziz idi. Qurub-yaratmaq həvəsi ilə boy atırdı ki, ona əsl övlad olsun.

O, ömrünün 19-cu ilində arzusuna çatır. Qarabağın erməni quldurlarından azad edilməsi uğrunda gedən ölüm-dirim savaşında qəhrəmanlıqla vuruşaraq şirin canından keçir. Duyğulu ürəyinin odu-alovu insanlara saf məhəbbət olan Etiqad indi cismən dünyada olmasa da, ən uca zirvədə dolaşan ruhu bizi həyatın gözəlliyini görüb haqqa, ədalətə tapınmaqla yaxşıları yaşatmağa səsləyir.

Etiqad Hacıyev 1974-cü ildə Lerik rayonunun, Rvarud kəndində anadan olmuşdu. 1993-cü ildə həqiqi hərbi xidmətə çağırılanda o, ilk gündən səngərə, döyüşə can atırdı. Yaxşı başa düşürdü ki, Vətənin ağır günündə cəbhə xəttində yağı düşmənlə qarşı-qarşı dayanmaq cəsur oğulların işidir.

Xidmətə Ağdam şəhərində yerləşən artilleriya batalyonunda başlayan Etiqadın birinci döyüş yeri Quzanlı olur. Bu ağır savaşdan qalib çıxır. İdarə etdiyi tankla düşmənə sarsıdıcı zərbələr vurur. Ağdamın Məriz-li kəndində də erməni işğalçılarına qarşı şəxsi igidlik, şücaət göstərir. Düşmənin əsas mövqelərini dağıtmaqla çoxlu sayda erməni dığasını o dünyalıq edir.

Etimad bir qayda olaraq düşdüyü mübarizə meydanında qalib gəlmək istəyi ilə vuruşurdu. Hər dəfə namərd düşmənlə üz-üzə gələndə yalnız sevdalandığı Vətəninin azadlığını düşünürdü. Bununla da işğalçılara nifrəti birə-beş artır, mərdlər diyarının qəhrəman oğlu kimi hərəkət edirdi. Ağdamda gedən döyüşlərin birində müqəddəs əsgəri borcunu şərəflə yerinə yetirdiyi yerdə tank əleyhinə minaya düşüb ağır yaralandı və 5 iyul 1993-cü ildə hərbi hospitalda gözlərini əbədi yumdu. Şərəfli ölümü ona Vətənin qəhrəmanlıq salnaməsində əbədiyyət çələngi hördü. Ömür yolu qısa olsa da, onun ürəyində Vətənin şərəfini həmişə uca tutmaq arzusu alovlandı.

**Zəfər Orucoğlu,**
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

# *Mübariz Qurbanlı:* Ümummilli Lider tariximizi yazan dahi şəxsiyyətdir



"Ümummilli lider Heydər Əliyevin 1969-cu il iyulun 14-də Azərbaycanda siyasi rəhbərliyə gəlişi ölkəmizin tarixində dönüş nöqtəsi hesab oluna bilər. Əlbəttə ki, bununla bağlı statistik rəqəmlərə istinad edərək xeyli məsələləri təhlil etmək mümkündür. Ən əsası odur ki, Azərbaycan ulu öndər Heydər Əliyevin rəhbərliyi dövründə həm keçmiş Sovet İttifaqında, həm də regionda çox böyük nailiyyətlərə imza atdı". Bunu SİA-ya açıqlamasında YAP icra katibinin müavini, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib.

YAP icra katibinin müavininin sözlərinə görə, Azərbaycan iqtisadi sahədə Sovet İttifaqının geridə qalmış respublikalarından biri idi və bu sahədə irəliyə çıxdı: "Təsəvvür edin ki, Sovet İttifaqı çökəndə iki müttəfiq respublika - Ukrayna və Azərbaycan mərkəzi büdcədən heç bir yardım almadan özü-özünü təmin etmək imkanına malik idi. İkincisi, mənəvi sahədə Azərbaycan çox böyük irəliləyişə imza atdı. Azərbaycan vahid bir ideyanın, yeni azərbaycançılıq ideyasının ətrafında birləşə bildi. Üçüncüsü, Azərbaycan regionda və beynəlxalq miqyasda özünü geniş surətdə tanıda bildi. Ümummilli Liderin rəhbərliyi dövründə Azərbaycanın Sovet İttifaqından kənarda daha geniş şəkildə tanıdılması üçün xaricdə yaşayan azərbaycanlılarla əlaqələr istiqamətində cəmiyyətlər, eyni zamanda "Vətən" Cəmiyyəti yaradılmışdır. Ulu öndər Heydər Əliyevin siyasəti sayəsində Azərbaycanın tanınmış şəxsləri Sovet İttifaqı çərçivəsində yüksək səviyyələrə qalxa bildi. Əgər biz o dövrdə XX əsrin 50-60-cı illərini götürsək, Sovet İttifaqının müxtəlif qurumlarında, rəhbər təşkilatlarında azərbaycanlılar çox azlıqda idi. Təbii ki, bu məsələ də həll edilmiş oldu.

Ümumiyyətlə, Ümummilli Liderin fəaliyyəti nəticəsində Azərbaycan həm siyasi, həm də mənəvi, iqtisadi baxımdan müstəqilliyə hazırlandı. Məhz bunun sayəsində biz Sovet İttifaqı dağılanda, müstəqilliyimizi bərpa edəndə Azərbaycan xalqı vahid ideya - azərbaycançılıq ideyası ətrafında birləşə bildi. Həmçinin müstəqil dövləti idarə edən mütəxəssislər də Ümummilli Liderin sayəsində hazırlıq keçmiş mütəxəssislər kimi özünü təsdiq etmiş oldu. Ulu Öndərin Azərbaycanda birinci dəfə siyasi rəhbərliyə gəlişi dönüş nöqtəsidir. Onun ikinci dəfə hakimiyyətə gəlişi qurtuluşdur. İnşAllah ümummilli lider Heydər Əliyevin ideyalarının təsdiqi, bütün ərazi bütövlüyümüzün bərpası və vahid Azərbaycanın yaranması isə xalqımızın qələbəsi olacaqdır. Ulu Öndər tariximizi yazan, tarix yazan tarixi şəxsiyyətdir".

# *Küveytin nümayəndəsi:* Qonaqpərvərliyə və səmimi münasibətə görə Azərbaycan xalqına minnətdaram

Azərbaycanın zəngin tarixi və mədəni irsi var. UNESKO-nun Bakı sessiyası tarixi mədəni irs nümunələrinizin təbliği və tanıdılması baxımından böyük əhəmiyyətə malikdir.

AZƏRTAC xəbər verir ki, bu sözləri Küveytin UNESKO-dakı səfiri Adam əl-Mulla söyləyib.

Qonaq bildirib ki, tədbir yüksək səviyyədə keçirilib. O, buna görə Azərbaycan hökumətinə, xüsusən də Mədəniyyət Nazirliyinə təşəkkürünü bildirib. "Qonaqpərvərliyə və səmimi münasibətə görə Azərbaycan xalqına minnətdarlığımı bildirəm. Sessiyada Şəki ilə bağlı irs nümunənizin UNESKO-nun Dünya İrs Siyahısına salınması ölkənizin böyük uğurudur", - deyə Adam əl-Mulla qeyd edib.



*Tian Sue Jun:*

## Çin Dünya İrs Komitəsinin 44-cü sessiyasında Azərbaycanın təcrübəsindən yararlanmaq niyyətindədir

Azərbaycan bu cür beynəlxalq miqyaslı tədbirlərin keçirilməsi ilə bağlı böyük təcrübəyə malikdir. Sessiya müddətində biz bunun bir daha şahidi olduq. Çində keçiriləcək Dünya İrs Komitəsinin 44-cü sessiyasında ölkənizin bu təcrübəsindən yararlanmaq niyyətindəyik.

AZƏRTAC xəbər verir ki, bu sözləri Çinin təhsil nazirinin müavini, bu ölkənin UNESKO üzrə Milli Komissiyasının rəhbəri



Tian Sue Jun söyləyib.

UNESKO-nun Ümumdünya İrs Komitəsinin növbəti sessiyasına ölkəsinin sədrlik edəcəyini söyləyən Tian Sue Jun deyib: "Azərbaycan hökumətinə, xüsusən də Mədəniyyət Nazirliyinə bu tədbirə yüksək səviyyədə ev sahibliyi etdiyinə görə təşəkkür edirəm. Eləcə də ölkənizin Şəki ilə bağlı nominasiyasının Dünya İrs Siyahısına salınması münasibətilə xalqınızı təbrik edirəm. Bu, ölkənizin böyük uğurudur, tarixi mədəni irs nümunələrinizin təbliği və tanıdılması baxımından əhəmiyyətlidir".

# Təmas xəttində nisbi sakitlik müşahidə olunub

Sutka ərzində Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində nisbi sakitlik müşahidə olunub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, cəbhənin bəzi sahələrində atəşkəs rejimi ara-sıra açılan atəşlə pozulub.



# "Yay məktəbləri" Yeni Azərbaycan Partiyasının gənclər üçün ən uğurlu layihələrindən biridir

## YAP Gənclər Birliyinin sədri, partiyanın Siyasi Şurasının üzvü Seymur Orucovun www.yap.org.az saytına müsahibəsi

***- Seymur müəllim, məlum olduğu kimi Yeni Azərbaycan Partiyasının təşkil etdiyi "Gənc liderlərin yay məktəbləri" layihəsinə start verilib. Layihənin əhəmiyyəti nədən ibarətdir?***

- Yeni Azərbaycan Partiyası gənclərin siyasi fəallığının artırılmasına, asudə vaxtlarının səmərəli təşkilinə, beynəlxalq əlaqələrin genişlənməsinə, ümumiyyətlə, ayrı-ayrı sahələr üzrə müxtəlif layihələrin həyata keçirilməsinə xüsusi diqqət yetirir. Gəncləri Azərbaycanın gələcəyi kimi dəyərləndirən ulu öndər Heydər Əliyevin əsasını qoyduğu siyasəti davam etdirən Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyev bildirib ki, müasirləşmə, yeniləşmə dövlət siyasətinin düzgün qurulmasından, eyni zamanda, gənclərin fəaliyyətindən asılıdır. Bu gün cəmiyyətimizdə gənclərin fəallığı olduqca yüksək səviyyədədir və onlar milli maraqların etibarlı müdafiəsi naminə sıx birləşiblər. Hər bir xalqın inkişafı üçün onun sağlam gəncliyinin olması vacib şərtlərdən biridir. Çünki hər bir ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı məhz intellektual kadrların yetişdirilməsindən, onların cəmiyyətin aparıcı qüvvəsinə çevrilməsindən asılıdır.

Bu baxımdan, ölkəmizdə gənclərlə iş sahəsində həyata keçirilən mütərəqqi islahatlar Azərbaycan gəncliyinin hərtərəfli inkişafına zəmin yaradıb, onların cəmiyyətdə özlərini təsdiq etməsində böyük əhəmiyyət kəsb edib.

YAP-ın gənclərlə bağlı ən uğurlu layihələrindən olan və 2007-ci ildən başlayan yay məktəblərini xüsusi qeyd etmək olar. Bu layihənin əsas məqsədi gənclərin bir-birini daha yaxından tanımasını, onların arasında səmimi münasibətlərin yaradılmasını, ölkədə ictimai həyatın istənilən sahəsində dinamik inkişaf haqqında onlara dolğun məlumatların çatdırılmasını, tanınmış siyasətçilərlə gənclərin görüşlərinin təşkil edilməsini, gələcəkdə müxtəlif sahələrdə çalışacaq bu gənclərdə liderlik kimi mühüm xüsusiyyətlərin formalaşdırılmasını təmin etməkdir.

Artıq bu gündən layihə başlayıb və yay məktəbləri Oğuz və Lerik rayonlarında təşkil olunub. Layihədə Bakı şəhəri ilə yanaşı bölgələrin də gəncləri iştirak edirlər. Layihədə iştirak edən gəncləri YAP İcra katibinin müavini, Milli Məclisin komitə sədri Siyavuş Novruzov qəbul edib, öz tövsiyələrini verib. Qeyd edim ki, layihə mərhələlərlə davam edəcək.

***- Budəfəki "Yay məktəbləri" çərçivəsində hansı tədbirlərin keçirilməsi nəzərdə tutulur?***

- Yeni Azərbaycan Partiyasının "Gənc liderlərin yay məktəbləri" ölkəmizdə uğurla həyata keçirilən dövlət gənclər siyasətinin tərkib hissəsi olan bu layihə gənclərin siyasi biliklərinin, intellektual səviyyələrinin artmasında da olduqca mühüm rol oynayır. Layihənin məqsədlərindən biri də gənclərin asudə vaxtlarını səmərəli təşkil etməklə yanaşı, onların ictimai həyatdakı fəallığının daha da artırılmasından ibarətdir. "Yay məktəbləri" gənc fəallar üçün həm təcrübə, həm də bilik mənbəyidir. Partiya gənc fəalların ictimai-siyasi aktivliyini artırmaq və gənclərin geniş fəaliyyətini təmin etmək üçün bütün imkanlardan istifadə edir, hər bir gəncin yaradıcı potensialından səmərəli istifadə olunmasına xüsusi diqqət ayırır.

YAP-ın üzvlərinin 40 faizini gənclərin təşkil etməsi onların bir daha siyasi və ictimai fəallığının göstəricisidir. "Yay məktəbləri" bunun ən əyani təzahürlərindən biri olmaqla YAP-çı gənclərin cəmiyyətdə nə qədər aktiv olduğunu göstərir.



Bu tədbirlər çərçivəsində müxtəlif seminarlar, təlimlər, diskussiyalar, interaktiv, intellektual və əyləncəli oyunlar təşkil edilir. Layihə çərçivəsində gənclərin siyasi fəallığının artırılması, asudə vaxtlarının səmərəli təşkili, beynəlxalq əlaqələrin genişlənməsi, ümumiyyətlə, ayrı-ayrı sahələr üzrə müxtəlif layihələrin həyata keçirilməsinə xüsusi diqqət yetirir. Keçirilən seminarlarda, təlimlərdə gündəmə çıxarılan mövzular ətrafında çıxışlar, müzakirələr gənclərə daha dolğun məlumatlar əldə etmələrinə şərait yaradır. Layihə həm də gənclərin keçirilən müzakirələr, diskussiyalar zamanı əsl liderliyi, idarəetməni, birliyi və yeniləşməni mənimsəməsi baxımından da mühüm əhəmiyyətə malikdir.

Nəzərdə tutulmuş proqrama uyğun olaraq layihə çərçivəsində partiyanın fəaliyyəti, gördüyü işlər barədə geniş məlumatlar veriləcək, eləcə də, region gəncləri ilə görüşləri təşkil olunacaq, müxtəlif idman yarışları, intellektual oyunlar, musiqili şənliklər keçiriləcək. Bir sözlə, yay məktəbləri gənclərin ictimai fəallığının yüksəlməsində daha bir mühüm addım hesab oluna bilər.

***- Ümumiyyətlə, ölkəmizdə gənclərin ictimai-siyasi proseslərdə rolunun artırılması ilə bağlı həyata keçirilən tədbirləri necə qiymətləndirirsiniz?***

- Gənclər Azərbaycanın gələcəyidir, onlar inkişafın və modernləşmənin önündə gedirlər. Gənclər yeni potensialdır, gücdür, yeniləşmə, müasirləşmə, inkişaf və modernləşmə strategiyasının təməl sütunları deməkdir. Azərbaycanda gənclər siyasəti həmişə dövlət siyasətinin əsas tərkib hissəsi kimi xüsusi yer tutub. Azərbaycan gəncliyi dövlətin diqqət və qayğısını hər zaman öz üzərində hiss edib.

Məhz həyata keçirilən məqsədyönlü siyasətin nəticəsidir ki, bu gün Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər formalaşır. Azərbaycan gəncləri gündən-günə ölkənin ictimai-siyasi həyatında daha böyük rol oynayır. Hazırda respublikada mövcud olan yüzlərlə qeyri-hökumət və gənclər təşkilatlarının aktiv fəaliyyəti dövlətin yaratdığı şərait sayəsində mümkün olub. Dövlətin gənclərə dəstək və diqqət göstərməsinin nəticəsində Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissini artırıb. Hər il olduğu kimi, ötən ildə də gənclərimiz iştirak etdikləri beynəlxalq olimpiadalarda və idman yarışlarında yeni-yeni qələbələrlə ölkəmizin şərəfini ucaldıblar.

# Mədəni irsimizin daha bir nümunəsi dünya xəzinəsində

**Bir neçə gündür ki, Bakıda UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası keçirilir. Bu, hər şeydən əvvəl, gündən-günə inkişaf edən paytaxtımızın bütün beynəlxalq təşkilatların mötəbər tədbirlərinə ev sahibliyi etməsinin növbəti təzahürüdür. Digər tərəfdən, mühüm beynəlxalq əhəmiyyətə malik belə bir tədbirin Bakıda keçirilməsi ölkəmizlə UNESKO arasında tərəfdaşlıq münasibətlərinin yüksək səviyyədə inkişaf etdiyini göstərir. Bu faktı həm də Azərbaycanın dünya irsi nümunələrinin qorunması məsələsində xidmətlərinin beynəlxalq miqyasda etirafının və yüksək qiymətləndirilməsinin sübutu kimi də xarakterizə etmək olar.**



### Böyük uğur

İyulun 7-də Bakı Konqres Mərkəzində keçirilən UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının iclasında Azərbaycanın daha bir mədəni irsi "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi" nominasiyasında bu mötəbər qurumun Ümumdünya İrs Siyahısına daxil edilib. Bununla da qədim, həm də unikal abidələrlə zəngin Şəki İçərişəhər və Qobustandan sonra Azərbaycanın Ümumdünya İrs Siyahısına salınan üçüncü mədəni irs məkanı olub və dünya xəzinəsində öz layiqli yerini tutub. Bəri başdan deyək ki, Şəki ilə bağlı tarixi qərarın Ümumdünya İrs Komitəsinin ölkəmizdə keçirilən sessiyasında qəbul olunması xüsusi məmnunluq doğurur.

Şübhəsiz, bu, tarixi irsimizin dünyada tanıdılması istiqamətində böyük uğurdur. Həm də mühüm bir tarixi hadisədir. Prezident İlham Əliyevin bu münasibətlə Azərbaycan xalqına təbrikində bildirdiyi kimi, Şəkinin tarixi mərkəzində keçmişimizi özündə təcəssüm etdirən Şəki Xan Sarayı, karvansaraylar, məscid və minarələr, qədim körpülər, sənətkarlıq emalatxanaları və yaşayış evləri artıq təkcə xalqımızın deyil, bəşəriyyətin mədəni irsi hesab olunur. Bu isə o deməkdir ki, bu abidənin UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi həm də onun qorunmasına əlavə təminatdır.

Qeyd edək ki, Şəkinin şimal-qərb hissəsində, qala divarları ilə əhatə olunmuş ərazidə yerləşən Xan Sarayı dünya əhəmiyyətli tarix və memarlıq abidəsidir. Özündə xalq yaşayış binalarının xüsusiyyətlərini daşıyan bina Qafqazda XVIII saray memarlığının ən gözəl nümunələrindən biri olmaqla, həm də Şərqin memarlıq incilərindəndir. Bu sarayın əsas xüsusiyyəti isə arxitekturasının unikallığındadır. Araşdırmalara görə, bu ikimərtəbəli binanın inşasında mismardan istifadə edilməyib.

### UNESKO-nun humanist dəyərlərinin bayraqdarı

Yeri gəlmişkən, həm ölkə başçısı İlham Əliyev, həm də Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti, UNESKO-nun və ISESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva, eləcə də mədəniyyət naziri Əbülfəs Qarayev bu münasibətlə xalqımızı təbrik ediblər. Dövlət başçısı İlham Əliyevin təbrik məktubunda deyilir: "Bu hadisələr Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə verdiyi töhfənin beynəlxalq miqyasda bir daha etirafıdır". Mehriban xanım Əliyeva bu uğuru belə dəyərləndirib: "Azərbaycan xalqı milli mədəniyyətimizin, adət-ənənələrimizin, tarixi irsimizin təkrarolunmaz incilərini qoruyub saxlayaraq dünyada tanıdılması istiqamətində böyük nailiyyətlər əldə edib... Bu tarixi hadisə münasibətilə bütün xalqımızı səmimi qəlbdən təbrik edirəm!" Mədəniyyət naziri Əbülfəs Qarayev isə bu mühüm hadisəni belə qiymətləndirib: "Bu, xalqımızın tarixində və özünüdərkində fövqəladə hadisədir".

Təbrik məktublarında, həmçinin qeyd olunub ki, son illər Azərbaycanın mədəni irsinin dünya səviyyəsində tanıdılması və qorunması istiqamətində çoxsaylı layihələr həyata keçirilib. Bu fəaliyyətlər beynəlxalq təşkilatlarla, xüsusən dünya mədəniyyəti, təhsili və elminə məsul olan UNESKO ilə sıx əməkdaşlıq şəraitində gerçəkləşdirilib. Tarixi abidələrimizlə yanaşı, Azərbaycan muğamı, xalçası, aşıq musiqisi, tar ifası, Novruz bayramı, kələğayı sənəti, Lahıc misgərlik sənəti UNESKO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına, Çövkən-Qarabağ atüstü oyun ənənəsi isə qurumun təcili qorunmağa ehtiyacı olan Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilib. Bütün bu işlərdə xeyirxahlığına, yüksək bacarığına görə hamının hörmətini, məhəbbətini qazanmış Mehriban xanım Əliyevanın danılmaz xidmətləri vardır. Bu mənada Birinci vitse-prezidentin UNESKO-nun humanist dəyərlərinin əsl bayraqdarı adlandırılması da təsadüfi deyil.

### Bu sahədə görüləcək işlər hələ də çoxdur

Bir daha vurğulayaq ki, Şəki şəhərinin tarixi mərkəzinin və Şəki Xan sarayının Ümumdünya İrs Siyahısına salınması Azərbaycanın UNESKO-da ardıcıl fəaliyyətinin, eləcə də ölkəmizin bu məsələyə xüsusi diqqətinin nəticəsidir. Bu uğur ölkəmizin illərdən bəri həm ölkəmizin daxilində, həm də onun hüdudlarından kənarda dünya irsi obyektlərinin qorunması ilə bağlı həyata keçirdiyi dövlət siyasətinin davamıdır. Şübhəsiz, Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzinin Ümumdünya İrs Siyahısına daxil edilməsi xarici turistlərin həmin bölgəyə cəlb edilməsinə də öz töhfəsini verəcək.

Mütəxəssislərin fikrincə, ölkəmizdə beynəlxalq miqyasda tanınmasını gözləyən hələ çox mədəni irs nümunələri (Atəşgah, Naxçıvandakı türbələr, Xəzər sahilindəki tarixi istehkamlar və s.) vardır. Azərbaycan dövləti tərəfindən həyata keçirilən ardıcıl iş sayəsində ölkəmizin mədəni irs nümunələrinin UNESKO siyahısında sayı bundan sonra da artacaq. Hər halda bu siyahıdan sonra daha bir neçə məkanımızın siyahıya salınması prosesinin sürətlənəcəyi şübhəsizdir.

Təəssüflə qeyd edək ki, bu gün erməni daşnakları tərəfindən yüzlərlə tarixi və memarlıq abidəsi, muzeylər, məscidlər və digər dini məbədlər dağıdılıb, yaxud ciddi dağıntıya məruz qalıb. Bu səbəbdən Azərbaycan mədəniyyət mülkiyyətinin qorunmasına aid müvafiq beynəlxalq konvensiyaların səmərəli icrasında çox maraqlıdır. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bildirdiyi kimi, bu sahədə görüləcək işlər hələ də çoxdur və UNESKO bu məsələdə mühüm rol oynamalıdır.

**Qvami Məhəbbətoğlu, *"İki sahil"***

# 290 məqalə, 403 elmi əsər və...





AMEA Naxçıvan Bölməsində beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onuncu sessiyasının yekunları və bölmənin qarşısında duran vəzifələrə həsr olunan tədbir keçirilib.

Tədbiri Bölmənin sədri, akademik İsmayıl Hacıyev açaraq beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onuncu sessiyasında Ali Məclisin Sədri cənab Vasif Talıbovun məruzəsində Naxçıvan Bölməsi qarşısında da vəzifələr qoyduğunu deyib. Akademik elmi nailiyyətlərin iqtisadiyyatda tətbiqinin, elmi tədqiqatların davam etdirilməsi və beynəlxalq əməkdaşlığın genişləndirilməsinin cari ildə bölmə qarşısında duran əsas vəzifələr olduğunu bildirib.

2019-cu ilin birinci yarısında aparılan elmi-tədqiqat işlərinin nəticələrini diqqətə çatdıran İsmayıl Hacıyev qeyd edib ki, ötən dövr ərzində Bölmə əməkdaşlarının 290 elmi məqaləsi, 101 konfrans materialı olmaqla 403 elmi əsəri çap olunub. Elmi məqalələrdən 14-nün impakt faktorlu jurnallarda işıq üzü gördüyünü deyən bölmə rəhbəri 46 əməkdaşın respublikada və xaricdə keçirilən 15 beynəlxalq tədbirdə məruzələrlə çıxış etdiyini vurğulayıb.

Bundan əlavə, "Nemətullah Naxçıvani: taleyi və sənəti" məqalələr toplusu çap olunub, "Naxçıvan tarixi-mənbələrdə" və "Naxçıvan Duzdağı" kitabları çapa təqdim edilib. Bölmədə humanitar və ictimai elmlər seriyası üzrə "Xəbərlər" və "Axtarışlar" jurnallarının hər birinin iki nömrəsi çapdan çıxıb.

Eyni zamanda, ilin birinci yarısında Bölmədə yerinə yetirilən iki respublika səviyyəli qrant layihəsinə yekun vurulub, iki beynəlxalq, biri respublika səviyyəli olmaqla 3 qrant layihəsinin icrası isə davam etdirilir.

Qurumun beynəlxalq əlaqələrindən söz açan Bölmə sədri Türkiyə, İran, Rusiya, ABŞ və Fransanın elm və təhsil müəssisələrinin alim və tədqiqatçıları ilə sıx elmi əməkdaşlığın aparıldığını bildirib. Bu dövrdə Bölmə ilə Türkiyənin İğdır Universiteti arasında elmi əlaqələrə dair memorandum imzalandığı söylənilib.

Birinci yarımildə akademik İsmayıl Hacıyev və AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev Türkiyə Elmlər Akademiyası və Qırğızıstan İssık-Kul Dövlət Universiteti tərəfindən "Manas"ın mirasçıları, Türk dünyası mədəniyyətinə xidmət", akademik İsmayıl Hacıyev Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 8 fevral 2019-cu il tarixli Sərəncamı ilə "Naxçıvan Azərbaycanın dövlətçilik tarixində" kitabına görə Naxçıvan Muxtar Respublika mükafatlarına layiq görülüb. Akademik Tariyel Talıbov Naxçıvan Muxtar Respublikasında elm sahəsində səmərəli fəaliyyətinə görə "Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə" nişanı, Ümumdünya Təbiəti Mühafizə Fondunun və Bölmənin Fəxri fərmanları ilə təltif olunub. Kimya üzrə fəlsəfə doktoru Fizzə Məmmədova Azərbaycan Respublikasının "Tərəqqi" medalı ilə təltif edilib, Rusiyanın "Akademik" Elmi-nəşriyyat Mərkəzi və "İvanov Manacment Group" Elm-təhsil holdinqinə rəyçi seçilib. Biologiya üzrə elmlər doktoru Fatmaxanım Nəbiyeva Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən "Elm sahəsində səmərəli fəaliyyətinə görə" Diploma təltif edilib, biologiya üzrə fəlsəfə doktoru Əfruz Nəsirova Azərbaycan Milli Elmlər Akademiyasının elan etdiyi "Gənc qadınlar elmdə" müsabiqəsində III yerə layiq görülüb, sənətşünaslıq üzrə fəlsəfə doktoru Ələkbər Qasımov isə Azərbaycan Respublikası Elmi Əlaqələndirmə Şurası yanında Sənətşünaslıq və Memarlıq Problemləri üzrə Elmi Şuranın üzvü seçilib.

Bölmənin sədri vurğulayıb ki, ixtisaslı elmi kadrların hazırlanması, tətbiqyönülü işlərin həyata keçirilməsi, ümumiləşdirici əsərlər, monoqrafiya və kitabların hazırlanması əsas vəzifələrimizdən biri olmalıdır. "Bununla yanaşı, əməkdaşların beynəlxalq və respublika səviyyəli elmi konfrans və simpoziumlarda iştirak etməsinə, respublikanın və xarici ölkələrin elm, təhsil müəssisələri ilə əməkdaşlığın genişləndirilməsinə, arxivlərdə araşdırmaların aparılması və digər tədbirlərin həyata keçirilməsinə diqqəti artırmalıyıq".

Sonda akademik Tariyel Talıbov, AMEA-nın müxbir üzvləri Fəxrəddin Səfərli və Əbülfəz Quliyev çıxış edərək elmi göstəriciləri qənaətbəxş hesab edib, gələcəkdə aparılacaq tədqiqatların səmərəliliyini yüksəltməyin zəruriliyini vurğulayıblar.

**Nərgiz Nəcəfli**



ERMƏNİSTANIN YENİ RİYAKARLIĞI:

## işğal hara, İnsan Hüquqları Şurası hara?

Qvami Məhəbbətoğlu

Ermənistanın xarici işlər naziri Zöhrab Mnatsakanyan öz ölkəsinin təcavüzkar və işğalçı siyasətini "demokratiya" pərdəsi ilə ört-basdır etmək üçün dəridən-qabıqdan çıxır. Xüsusilə, o, son vaxtlarda xarici ölkələrdəki çıxışlarında bu detal üzərində daha çox var-gəl edir. Hətta "məxməri inqilab"dan sonra nazir vəzifəsinə gətirilmiş Zöhrab Mnatsakanyan Ermənistanda baş verənləri - yoxsulluğu və işsizliyi, sosial şəraitin ağırlaşmasını, iqtisadiyyatın çökməsini, miqrasiyanın səviyyəsinin artmasını, korrupsiyanın tüğyan etməsini, insan haqlarına məhəl qoyulmamasını "demokratiyaya keçid edən Ermənistan üçün təbii hal" kimi dəyərləndirməyə cəhd göstərir.

Nə qədər qəribə olsa da belə bir vəziyyətdə olan Ermənistan cari ilin payızında BMT-nin İnsan Hüquqları Şurasına seçilmək niyyətindədir. Hətta xarici işlər naziri Zöhrab Mnatsakanyan bu günlərdə belə bir təşəbbüslə də çıxış edib. Axı, belə bir ölkə BMT-nin bu mötəbər qurumunda necə təmsil oluna bilər? Siyasətçilərin fikrincə, Ermənistanın demokratiyadan danışmasının heç bir məntiqi izahı yoxdur. Xarici işlər nazirinin bu cəhdi isə öz-özünü aldatmaqdan, yalanlar uydurub beynəlxalq aləmi çaşdırmaqdan başqa bir şey deyil. Bu mənada Mnatsakanyanın addımları perspektivsiz və mənasız bir cəhddir.

Ekspert Hatəm Cabbarlı mövzu ilə bağlı "İki sahil" qəzetinə açıqlamasında bildirdi ki, Ermənistanın İnsan Hüquqları Şurasına üzv seçilməsi üçün bu beynəlxalq təşkilatın nəzdində formalaşmış erməni lobbisi xeyli vaxtdır ki, fəallıq göstərir: "Onu da qeyd edək ki, bu şura (UNHPC) 15 mart 2006-cı ildə yaradılıb. Şura son 60 ildə fəaliyyət göstərən İnsan Haqları Komissiyasını (UNCHR) əvəz edib. UNCHR-in prosedur qaydaları UNHPC üçün də keçərlidir. Şura insan haqları ilə bağlı məsələləri müzakirə edir və insan haqlarının daha geniş sahələrdə təmin olunmasına çalışır".

Müsahibimiz, həmçinin bildirdi ki, nədənsə bu məsələdə Ermənistanda insan haqlarının, ifadə azadlığının vəziyyətinin nə yerdə olduğu diqqətə alınmır: "Halbuki Ermənistanda insan haqları ilə bağlı ciddi problemlər yaşanır. Digər tərəfdən, Ermənistan Azərbaycanın ərazilərinin 20 faizini işğal edib. Bu işğalın nəticəsi olaraq, Azərbaycan dövlətinin ərazi bütövlüyü kobud şəkildə pozularaq Dağlıq Qarabağın və ətraf rayonların əhalisinin yaşamaq hüququ əlindən alınıb. Bu ərazilərdə yerli azərbaycanlıların etnik təmizlənməsini həyata keçirən Ermənistan beynəlxalq hüququn norma və prinsiplərini tapdalayaraq BMT Nizamnaməsini və ATƏT-in Helsinki Yekun Aktını, BMT Təhlükəsizlik Şurasının qətnamələrini rədd edib. Avropa Şurasının, İslam Əməkdaşlıq Təşkilatının və digər qurumların sənədlərində Ermənistanın beynəlxalq hüququ pozan dövlət olması faktlarla dəfələrlə təsbit olunub. Üstəlik, müxtəlif vaxtlarda Ermənistanda insan haqlarının pozulması, seçki məsələsində, demokratiyanın inkişafı sahəsində problemlərin olması qeyd edilib. Azərbaycanın haqlı tələblərinə, təcavüzkarlıq faktını dünyanın qətiyyətlə pisləməsinə baxmayaraq, Ermənistan işğalçılıq siyasətini davam etdirir.

Məhz bu kimi səbəblərə görə bir dövlətin nümayəndəsinin belə bir mötəbər quruma üzv seçilməsi qəbuledilməzdir. Güman edirəm ki, Azərbaycan Ermənistanla bağlı bütün neqativ məsələləri bir daha gündəmə gətirməklə bunun qarşısını ala bilər. Digər tərəfdən, qeyd etdiyimiz faktlar Ermənistan kimi bir dövlətin beynəlxalq insan haqları təşkilatlarında hər hansı bir mövqe tutmasına əsla imkan verməz.

Bu yerdə bir məsələyə də toxunmaq istərdim. Bu günlərdə, daha doğrusu, iyulun 7-də Ermənistan nümayəndə heyətinin səylərinə baxmayaraq, ATƏT PA-nın Demokratiya, insan hüquqları və humanitar məsələlər komitəsinin iclasında bizim diplomatların səyləri nəticəsində Gürcüstan, Azərbaycan, Ukrayna və Moldovanın ərazi bütövlüyü və bu dövlətlərin sərhədlərinin toxunulmazlığı növbəti dəfə dəstəklənib. Şübhəsiz, bu, Azərbaycanın da uğurudur".

Müsahibimiz daha sonra qeyd etdi ki, əgər Ermənistan xarici işlər naziri həqiqi demokratiya quruculuğunda maraqlıdırsa, o zaman işğalçı ölkə silahlı qüvvələrini ərazilərimizdən çıxarmalı və didərgin salınmış məcburi köçkünlərin öz yurd-yuvalarına qayıtmasına mane olmamalıdır: "Yalnız bundan sonra Ermənistanın xarici işlər naziri demokratiyadan və insan haqlarından danışa, yaxud da bununla bağlı hansısa qurumda təmsil oluna bilər".

# Əlilliyi olan şəxslərin idman vasitəsilə cəmiyyətə inteqrasiyası

**Zaman-zaman həyatda böyük sınaqlar qarşısında qalırıq. Onları dəf etmək bəzən çətin, bəzən də asan olur. Əməllərimizə görə bəzən mükafatlandırılır, bəzən də cəzalandırılırıq. Bəzən alın yazı, qismət deyib, nələrləsə barışmalı oluruq. Lakin elə anlar, məqamlar olur ki, seçim imkanımız olmur, elə bu həqiqətlərlə də həyatımıza davam edirik. Məsələn, anadangəlmə və ya sonradan fiziki qüsurlu olmaq kimi...**

Təbii ki, hər şeyə rəğmən, bu cür insanların da başqaları kimi cəmiyyətin tamhüquqlu üzvləri olmaq haqqları var. Onlar da təhsil almalı, işləməli, hər hansı bir sahə üzrə peşəkar mütəxəssisə çevrilərək dövlət və cəmiyyət üçün yararlı insanlar olmalıdırlar. Bunun üçün hər birimiz bu insanlardan öz köməyimizi əsirgəməməli, onlara lazım olan bütün dəstəyi göstərməliyik.

Bu gün ölkəmizdə əlilliyi olan şəxslərin məhz idman vasitəsilə cəmiyyətə inteqrasiyası sahəsində mühüm addımlar atılır və kifayət qədər müsbət nəticələr əldə edilir. Bu sırada Azərbaycan paralimpiya hərəkatını xüsusi vurğulamaq lazımdır. Azərbaycanda Paralimpiya hərəkatının yaranma tarixi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Məhz Ümummilli Liderin təşəbbüsü ilə 1996-cı ildə Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsi yaradılıb. Azərbaycan Milli Paralimpiya Komitəsi elə həmin ildə Atlantada keçirilən X Yay Paralimpiya Oyunlarında cəmi iki idman növü üzrə iki idmançı ilə iştirak edib.

*Baş məşqçi Ramin İbrahimov:*

### Biz həmin uşaqları tapıb üzə çıxarırıq, idmana cəlb edirik

Azərbaycanın cüdo üzrə qadınlardan ibarət paralimpiya milli komandasının baş məşqçisi, "London-2012" Yay Paralimpiya Oyunlarının qalibi Ramin İbrahimov "İki sahil" qəzetinə açıqlamasında bildirdi ki, son illər ölkəmizdə paralimpiya hərəkatı daha da genişlənib və uğurlar xeyli artıb: "Əvvəllər paralimpiya hərəkatı əsasən Bakıda inkişaf edirdisə, bu gün artıq regionlarımızda da geniş vüsət alıb. Hazırda bölgələrdə idmançıları paralimpiya idmanına cəlb etmək üçün səylərimizi davam etdiririk. Məsələn, Şamaxı rayonundan olan bir idmançımız var, onun gözləri tam olaraq görmür. Həmin idmançını Şamaxı rayonunun Ərəbşalbaş kəndindən taparaq milli komandaya cəlb etmişik. Biz iyulun 23-də İtaliyada keçiriləcək Avropa çempionatına yola düşəcəyik və həmin idmançı da orada Azərbaycanın para-cüdo üzrə qadınlardan ibarət yığma komandasının tərkibində çıxış edəcək. Hətta həmin idmançı "Tokio-2020" Yay Paralimpiya Oyunlarına lisenziya qazanmağa ümid etdiyimiz idmançılardandır. O cümlədən Gəncədə, Naxçıvanda və digər bölgələrimizdə paralimpiya hərəkatında, son illərdə xüsusilə çox böyük inkişaf müşahidə olunur. Əvvəllər valideynlər fiziki cəhətdən qüsurlu olan uşaqlarını idmana buraxmırdılar. Bəzi valideynlər hətta belə uşaqlarını ictimaiyyət içərisinə çıxarmağa utanırdılar. Amma biz həmin uşaqları tapıb üzə çıxarırıq, idmana cəlb edirik. Bundan valideynlər də çox şad olurlar və deyirlər ki, uşaqlar artıq xoşbəxtdirlər və gələcəyə ümidlə baxırlar".

### Hazırda yüzlərlə əlil uşaq var ki, Milli Paralimpiya Kompleksində, zallarda, klublarda idmanla məşğul olur

Tarixə nəzər salsaq görərik ki, 2013-cü ildə Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin nəzdində Uşaq Paralimpiya Komitəsi yaradılıb. Komitənin yaradılmasında məqsəd sağlamlıq imkanları məhdud uşaqların idmana cəlb olunması yolu ilə ehtiyat idmançıların hazırlanması və onların abilitasiya və reabilitasiya yolu ilə cəmiyyətə inteqrasiyasını təmin etməkdir. Milli Paralimpiya Komitəsi İcraiyyə Komitəsinin qərarı ilə Uşaq Paralimpiya Komitəsinin 13 nəfərdən ibarət idarə heyəti təsdiq edilib, müvafiq təyinatlar olub.

R.İbrahimov qeyd etdi ki, Azərbaycanda əlil gənclərin paralimpiya hərəkatı ilə bağlı cəmiyyətə inteqrasiyası istiqamətində böyük işlər görülür: "Bu məsələ ilə Milli Paralimpiya Komitəsi məşğul olur. Postsovet ölkələrində ilk dəfə olaraq Azərbaycan Milli Paralimpiya Komitəsinin nəzdində Uşaq Paralimpiya Komitəsi yaradılıb. Orada uşaqlar müxtəlif idman növləri üzrə məşq edirlər. Biz həmin uşaqlara məşğul oluruq ki, uşaq yaşlarından özlərinə qapanmasınlar. Çünki onların yaşı artdıqdan sonra idmana cəlb etmək çox çətin olur. Hazırda yüzlərlə əlil uşaqlar var ki, Milli Paralimpiya Kompleksində, zallarda, idman klublarında idmanla məşğul olurlar. Birinci məqsədimiz odur ki, ilk öncə uşaq paralimpiyasını inkişaf etdirək. Bu sahədə də böyük işlər görülüb və görüləcək".

### "Bütün çəkilərdə paralimpiya oyunlarına lisenziya qazanmağa namizəd olan idmançı qızlarımız var"

Müsahibimizin sözlərinə görə, indiyədək Azərbaycanın yeddi qadın paralimpiya çempionu var: "Onlardan biri cüdo üzrə qadınlardan ibarət paralimpiya milli komandasının üzvü Afaq Sultanovadır. O, "London-2012" Yay Paralimpiya Oyunlarının qalibidir. "Rio-2016" Yay Paralimpiya Oyunlarında isə demək olar ki, uğurlarımız nisbətən zəif oldu. Həmin yarışda Səbinə Abdullayeva bizi təmsil edirdi. Amma uğursuz çıxış etdi. "Rio-2016"dan sonra mən öz idmançı karyeramı başa çatdırdım. Mən para-cüdo üzrə Avropa və dünya çempionuyam, həmçinin "London-2012" Yay Paralimpiya Oyunlarının qalibiyəm. Karyeramı başa çatdırandan sonra Milli Paralimpiya Komitəsinin prezidenti İlqar Rəhimov mənə dedi ki, səni Azərbaycanın cüdo üzrə qadınlardan ibarət paralimpiya milli komandasının baş məşqçisi təyin etmək istəyirəm. Mən isə bu təklifi böyük məmnuniyyətlə qəbul etdim. Daha əvvəllər az sayda titullu idmançılarımız var idi. Artıq onlarla titullu idmançılarımız var. Biz onları aşkarlayaraq idmana cəlb etmişik. Bildiyiniz kimi, para-cüdo idman növündə ancaq gözündə qüsur olan idmançılar çıxış edirlər. Həmin idmançılar görmə məhdudiyyəti tam, orta və zəif görmə üzrə B1, B2, B3 kateqoriyalarına bölünürlər. Onları milli komandaya cəlb etdik. Hazırda bütün çəkilərdə paralimpiya oyunlarına lisenziya qazanmağa namizəd olan idmançı qızlarımız var. Mən milli komandaya baş məşqçi təyin olunduqdan sonra Sevda Vəliyeva və Xanım Hüseynova beynəlxalq yarışlarında Avropa çempionu oldular. Afaq Sultanova və Ramilə Yusubova IV İslam Həmrəyliyi Oyunlarında qızıl medal qazandılar. Son beynəlxalq yarış isə para-cüdo üzrə Bakıda keçirilən Dünya kuboku yarışları oldu. Burada da qadınlarımız çox yaxşı nailiyyətlər qazandılar. 48 və 57 kq çəki dərəcələrində Şəhanə Hacıyeva və Sevda Vəliyeva bu yarışda qızıl medal qazandılar. Burada, həmçinin gümüş və bürünc medal qazanan idmançılarımız da oldu. Ümumilikdə baş məşqçi kimi, komandadan razıyam. Çox güclü heyətimiz var. İnanıram ki, qarşıdakı paralimpiya oyunlarında qadınlarımız bütün çəki dərəcələrində ölkəmizi layiqincə təmsil edəcəklər".

R.İbrahimov vurğuladı ki, paralimpiyaçılarımız hər zaman dövlət başçısı İlham Əliyevin isti, qayğıkeş münasibətini öz üzərlərində hiss ediblər: "Qələbə qazanan idmançılarımız, məşqçilərimiz möhtərəm Prezidentmiz İlham Əliyevin müvafiq sərəncamları ilə orden və medallarla təltif ediliblər. Bütün bunlarla yanaşı, paralimpiyaçıların maddi rifahı daim yaxşılaşdırılır, idmançılarımız mənzillər, minik avtomobilləri ilə təmin edilirlər".

### Uğurlar davamlıdır...

Hazırda Paralimpiya Komitəsi yüzlərlə idmançını özündə birləşdirir. Məqsədyönlü işlərin nəticəsi olaraq, Milli Paralimpiya Komitəsinin idmançıları 1996-cı ildən başlayaraq yeni-yeni nailiyyətlər əldə ediblər. Bu gün ölkəmizdə paralimpiyaya olan diqqət və qayğının nəticəsidir ki, əldə olunan uğurların sayı durmadan artır. Belə ki, ötən ay azərbaycanlı atletlər beynəlxalq yarışda 6 qızıl medal qazanıblar. Azərbaycanın atletika üzrə paralimpiya milli komandası Tunisdə keçirilən beynəlxalq qran-pri yarışında uğur qazanıb. Həmin turnirdə idmançılarımız - Elvin Astanov, Yelena Çebanu, Elçin Muradov, Səid Cəfərzadə, Nurlan İbrahimov və Elşən Quliyev uğurla çıxış ediblər. Nizə atışı yarışlarında Elvin Astanov 20.08 metrlik nəticə göstərərək 2-ci yerdə qərarlaşıb. T12 kateqoriyasında uzunluğa tullanma üzrə qadınların yarışında idmançımız Yelena Çebanu 5.21 metrlik nəticə göstərərək yarışların qızıl medalına layiq görülüb. T11 kateqoriyası üzrə kişilər arasında uzunluğa tullanma yarışında Elçin Muradov 6.48 metrlik nəticə ilə birinci yeri özünə təmin edib. Digər idmançımız Səid Nəcəfzadə isə T12 kateqoriyasındakı uzunluğa tullanma yarışlarında 6.80 metrlik nəticə göstərərək ikinci yeri qazanıb. İdmançımız Nurlan İbrahimov T11 kateqoriyası üzrə sprint qaçışı yarışında 200 metr məsafəni 24.98 saniyə ərzində qət edərək ikinci yerdə qərarlaşıb. Qadınlar arasında 200 metr məsafəyə qaçışda T12 kateqoriyası üzrə yarışan idmançımız Yelena Çebanu isə 24.99 saniyə nəticə göstərib və birinci yerə layiq görülüb. 1500 metr məsafədə qaçış yarışlarında T46 kateqoriyasında yarışan idmançımız Elşən Quliyev 5.47:24 dəqiqəlik nəticə göstərib. O, yarışların 5-ci yeri ilə kifayətlənməli olub.

Paralimpiya hərəkatı, paralimpiya dəyərlərinin təbliği, əlilliyi olan şəxslərin idman vasitəsi ilə cəmiyyətə inteqrasiya olunması, bu sahənin inkişafı istiqamətində dövlət qurumlarının, o cümlədən özəl şirkətlərin fəaliyyətinin stimullaşdırılması olduqca mühümdür. Yazının əvvəlində də qeyd etdiyimiz kimi, bunun üçün hər birimiz öz üzərimizə düşən məsuliyyəti dərk etməli, bu sahənin inkişafı üçün əlimizdən gələni əsirgəməməliyik.

Rəşad Bağırov,
*"İki sahil"*



**Yazı Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin Azərbaycan Mətbuat Şurası ilə birgə keçirdiyi müsabiqəyə təqdim edilir.**

# "Azercell"in sel kimi yalanları və qaz vurub qazan doldurmaq mərəzi

## Və yaxud mobil operatorun "müştəri hər zaman haqlıdır" fiaskosu

**Mobil rabitənin, virtual əlaqənin ən çağdaş dövründə Azərbaycanın mobil operatoru olan "Azercell" inkişafın önündə deyil, quyruğunda sürünür desək, yanılmarıq. Hər gün yüksək pafosla inkişafdan danışan bu mobil operatorun nəinki ən ucqar dağ kəndində, hətta paytaxt Bakının mərkəzində, Zərdabi prospekti 88-də " İki sahil" qəzetinin redaksiyasında (şirkətin əsas ofisindən təxminən 1 kilometr məsafədə yerləşirik) şəbəkəsi tutmursa, ya da ki, danışıqlar qırıla-qırıla, kəsilə-kəsilə davam edirsə bu, abonentlərin incidilməsidir. Özü də dəfələrlə bununla bağlı "Azercell"ə müraciət olunsa da, heç bir nəticəsi olmayıb. Yəni abonentin konturu xərclənir, ancaq aydın danışıq, keyfiyyətli xidmət isə ən aşağı səviyyədədir.**

Hətta ekspertlərin dəfələrlə ölkə mətbuatında da qeyd etdikləri kimi, "Azercell" mobil operatorunun xidmət haqqı və tarifləri MDB məkanında ən bahalılar sırasındadır. Ancaq xidmət səviyyəsi isə bu yüksək tariflərə uyğunlaşdırılmır. Ümumi görünən mənzərə isə belədir: bu mobil operatorun bir məqsədi var - qaz vurub qazan doldurmaq...

Təbii ki, "Azercell" mobil operetorunun nöqsanları bunlarla bitsə şükür edərdik. Hətta abonentlərinə qarşı hörmətsizliyinə, kələkbazlığına görə də bu mobil operator "Ginnesin rekordlar" kitabına da düşə bilər. "Azercell"in saxta kampaniyalarla insanları öz toruna salmağa çalışması şakəri də uzun müddətdir davam edir. Şirkət hər vəchlə çalışır ki, abonentin konturunu həzm-rabedən keçirsin.

Abonentlərdən birinin söylədiyinə görə, bir dəfə ona "ulduz falı" ilə bağlı bir mesaj gəlir. O, mesajı rədd etməyə cəhd edir. Lakin bilmədən başqa bir düyməni basır. Nəticədə hər gün ondan istəmədiyi halda 14 qəpik çıxılır. Abonentin bildirdiyinə görə, mesajı ləğv etmək üçün elə həmin mesajdakı nömrəyə "stop" yazıb göndərir. Lakin bir neçə gün həmin mesajı qəsdən qəbul etmirlər. Beləliklə də, minlərlə abonent onların bu hiyləgərliyinin qurbanına çevrilir.

Digər bir abonent isə bildirir ki, 5 manatlıq kontur yükləyib. Ona mesaj gəlib ki, kreditiniz sona çatıb. Halbuki heç kredit götürməyib. Müraciət edəndə absurd ifadələrlə onu yola verməyə çalışıblar. Açıq-aydın hiss edilirdi ki, haqsızdırlar, ancaq boyunlarına almaq istəmirlər. Axırda əlacsız qalaraq o, "sim" nömrəsini bir xeyli bağlı saxlayıb və kontur yükləməyib.

Təbii ki, bu yazdıqlarımız "Azercell" mobil opreatorunun abonentlərinə sərgilədiyi hörmətsizliyin və hiyləgərliyin heç də hamısı deyil. Biz bu məsələni gündəmdə saxlamaqla abonentlərin şikayətlərini və iradlarını araşdırmağa çalışacağıq.

Əslində, "Azercell" kimi mobil operatorun bu hegemonluğunun bir səbəbi də ölkəmizin mobil operator bazarında onların sayının az olmasıdır. Hər zaman böyük sərmayələrə açıq olan ölkəmizdə daha bir neçə mobil operatorun olması vacibdir ki, insanların seçimi daha geniş olsun. Onda "Azercell" kimi mobil operatorlar yaxşı anlayarlar ki, müştəri hər zaman haqlıdır.

**Elçin Zaman, "İki sahil"**

# Çimərlik mövsümü: hansı qaydalara riayət etməliyik?

**Yay fəslinin ikinci ayını yaşayırıq. Artıq mövsüm özünün ən isti üzünü göstərməkdədir. Paytaxt sakinləri də bu cür qızmar havalarda sərinlik tapmaq, istidən qorunmaq, sağlamlıqlarının müdafiəsi üçün çimərliklərə üz tuturlar.**

Çimərliklər ictimaiyyətin istifadəsi üçün nəzərdə tutulduğundan oraya daxil olan, dincələn hər bir kəs gigiyena və mühafizə şərtlərinin qorunması naminə bir çox qaydalara diqqət yetirməlidir.

İlk olaraq dənizə gedərkən əsas məqamlardan biri də günəş şüalarının qəbulu prosesidir. Belə ki, günəş şüalarını qəbul etmək, necə deyərlər bədəni qaraltmaq insan sağlamlığına müsbət təsir göstərir. Amma insan səhərdən axşama qədər dəniz sahilində, günəş şüalarının altında qalmamalıdır. Yadda saxlamaq lazımdır ki, günəş şüaları altında həddindən çox olmaq dəri xərçənginə səbəb ola bilər.

Sual verə bilərsiniz ki, bəs qaralmaq üçün ən uyğun zaman nə vaxtdır? Belə ki, bədəninizi qaraltmaq üçün ən münasib saatlar səhər 9-dan 11-ə, günortadan sonra isə 16-dan 19-a qədərdir. Günəş şüalarının qəbulu birinci gün 10 dəqiqə, ikinci gün 20 dəqiqə, üçüncü gün 30 dəqiqə olmalıdır. Beləliklə, günəş şüalarının altında keçirəcəyiniz vaxtı birdən deyil, tədricən artırmaq lazımdır. Nəzərinizdə onu da saxlayın ki, məhz günəş şüaları altında kitab oxumaq görmə qabiliyyətinizdə ciddi problemlər yarada bilər. Çimərliyə gedərkən özünüzlə eynək götürməyi unutmayın. Çünki açıq dəniz sahilində gözləri günəş şüalarından və qumdan qorumaq üçün eynək sizin əsas yardımçınız olacaq.

Digər bir məqam isə onunla bağlıdır ki, dənizdə nələri etməməliyik? Günün qaranlıq saatlarında, yağışlı, buludlu və küləkli havada dənizə getmək məqsədəuyğun deyil. Eyni zamanda, dövlət tərəfindən qadağan olunmuş çimərliyə getmək məsləhət görülmür. Ümumilikdə isə çimərliyə tək getmək məsləhət deyil. Nəzərdə tutulmamış ərazilərdə çimmək, işarələnmiş sərhədlərdən kənara üzmək, küləkli havada dənizə girmək, çimərlikdə gecələmək, sərxoş halda çimərlikdə olmaq, suda kobud hərəkətlər etmək, çimərlikdə balıq tutmaq, xilasetmə texnikasından başqa digər qayıq və kiçik gəmilərlə çimərliyə daxil olmaq, qızmar günəş altında fasiləsiz dayanmaq, hava qaraldıqdan sonra suya daxil olmaq təhlükəlidir.



Çimərliyə gedərkən özünüzlə gündən qoruyucu vasitələr götürməyi unutmayın. Hər 2 saatdan bir dərinizə gündən qoruyan krem çəkin. Bu vasitələr dərini ultrabənövşəyi şüaların ziyanlı təsirindən qoruyur. Yaxşı keyfiyyətli kremlərdən istifadə edin, kremləri aptekdən alın. Alternativ variant - təbii yağlardır. Bəzi təbii yağlar da dərini gündən qoruyan istənilən kremdən daha yaxşı qoruyur. Bu yağlar arasında - təbii zeytun, çaytikanı, küncüt, kokos, avokado yağıdır. Krem və ya yağı günə çıxmamışdan 10-15 dəqiqə əvvəl bədəninizə çəkin, dənizdən çıxdıqdan sonra krem çəkməyi unutmayın.

Mütləq nəm çimərlik geyiminizi dəyişin. Bu, sizin sağlamlığınız üçün vacibdir.

Çimərlikdə düzgün qidalanın. Gün ərzində çimərlikdə olduğunuz vaxt qida rasionunuza diqqət yetirmək vacib şərtlərdəndir. Təbii ki, çimərlikdə olarkən yağlı, konservləşdirilmiş ərzaqlardan imtina etmək lazımdır. Daha çox meyvə və tərəvəzlərə, xüsusilə tərkibi beta-karotinlə zəngin olan kök, ərik və şaftalıya üstünlük vermək daha məqsədəuyğundur. Orqanizmin maye balansını normal saxlamaq üçün gün ərzində çimərlikdə istirahət edərkən 1.5-2 litr su içmək lazımdır. Yaşıl çay, təbii meyvə şirələri də qəbul etmək faydalıdır. Çimərlikdə süd və ət məhsulları yeməyin. Bu kimi məhsullar isti havada orqanizmi artıq yükləyir və həmçinin zəhərlənməyə səbəb ola bilər.

Dənizə girmədən öncə su axınlarına diqqət etmək lazımdır. "Su axını" deyilən təbii hadisələr baş verir. Su axını zamanı dəniz suyu ağımtıl rəngdə olur və köpüklər əmələ gəlir. Su axınlarının eni 3-5 metr, uzunluğu isə 55-60 metr aralığında ola bilər. Axına düşəndə panika yaşamaq ölümə səbəb olur. Ona görə də panikadan uzaq olmaq vacibdir. Nəzərə almaq lazımdır ki, axının müddəti 3-5 dəqiqə çəkir. Axına paralel 5-6 metr sağ və ya sola üzməklə, təhlükəli vəziyyətdən çıxmaq mümkündür.

Etibar etdiyiniz çimərliklərə gedin. Dövlət tərəfindən icazə verilən çimərliklərdə təhlükəsizlik Fövqəladə Hallar Nazirliyinin (FHN) Sularda Xilasetmə Xidmətinin əməkdaşları tərəfindən təmin olunub. Onlar çimən şəxslərə nəzarət edir, batma və ya boğulma kimi təhlükəli hallara müdaxilə edirlər. Hətta bu çimərliklərdə ilkin təcili tibbi yardım briqadaları mövcuddur. Bu briqadalar Bakının 16 çimərliyində vətəndaşlara xidmət göstərir.

Uşaqlar çimərlikdə nəzarətsiz buraxılmamalıdır. Valideynlər uşaqlara diqqət etməlidir. Dənizdə üzə bilməyənlər sinəyə qədər suya girə bilərlər, üzə bilənlər isə mövcud qaydalara riayət etməlidirlər. Dənizdə sahildən uzaqlaşmamaq üçün nəzərdə tutulmuş təhlükəsizlik şarlarını keçmək olmaz. Qadağanedici şarları keçmək, vətəndaşların özləri ilə hava şarları və motorlu su qayıqları gətirib, suya salması qadağandır. Bundan əlavə, çimərliyə gedərkən vaxta və rejimə diqqət etmək vacibdir. Uşaqları dənizə səhər saat 06:00-dan 11:00-a qədər və 16:00-dan sonra aparmaq lazımdır. Uşaqlar mütləq valideynlərin nəzarəti altında çimməlidirlər. Unutmayaq ki, çimərliyə çox gedən uşaqlar qış mövsümündə daha az xəstələnirlər. Daha sağlam və gümrah olurlar.

Yay fəslində çimərlikdə rahat dincəlmək və sağlamlığı qorumaq üçün bütün təhlükəsizlik qaydalarına da riayət etməliyik. Nə qədər diqqətli olsanız, o qədər yaxşıdır.

**Yaqut Ağaşahqızı, "İki sahil"**

# Bakı Ali Neft Məktəbində "Cisco" Akademiyası açılacaq




***Bakı Ali Neft Məktəbində (BANM) "Cisco" şirkətinin nümayəndələri ilə görüş keçirilib. Görüşün əsas məqsədi şirkətin ali məktəblə birgə effektiv əməkdaşlığının qurulması və perspektivlərinin müzakirəsi olub.***

Görüşdə "Cisco" şirkətinin Azərbaycan üzrə meneceri İbrahim Səidov, şirkətin Azərbaycanda İnnovasiya üzrə direktoru Ramil Eyyubov, şirkətin əsas tərəfdaşlarından olan "AzNEXT"in baş direktoru Səməd Abbasov və şəbəkələr üzrə mütəxəssisi Emin Seyidov, BANM-in Proseslərin avtomatlaşdırılması mühəndisliyi kafedrasının müdiri Nailə Allahverdiyeva və kafedranın professor-müəllim heyəti iştirak ediblər.

Qonaqları ali məktəbdə görməkdən məmnunluğunu ifadə edən BANM-in rektoru Elmar Qasımov ölkədə fəaliyyət göstərən bir çox yerli və beynəlxalq şirkətlərlə olduqca effektiv əməkdaşlıq qurulduğunu bildirib.

Rektor "Cisco" kimi nüfuzlu şirkət ilə əməkdaşlığı strateji maraq hesab edib. O, gələcəkdə BANM-də "Cisco" Şəbəkə Akademiyasının və təlim mərkəzinin açılmasının proseslərin avtomatlaşdırılması mühəndisliyi ixtisasında təhsil alan tələbələrin yüksək səviyyəli mütəxəssis kimi yetişməsində əvəzsiz rol oynayacağını şirkət nümayəndələrinin diqqətinə çatdırıb.

"Cisco" şirkətinin Azərbaycanda İnnovasiya üzrə direktoru Ramil Eyyubov bildirib ki, şirkətin əsas istiqamətlərindən biri təhsil sahəsidir və şirkətin nümayəndələri ölkədə fəaliyyət göstərən BANM kimi nüfuzlu tədris müəssisəsi ilə əməkdaşlıq qurmağa maraqlıdır.

O qeyd edib ki, gələcəkdə BANM ilə qurulmuş əməkdaşlıq nəticəsində şirkətin əməkdaşları proseslərin avtomatlaşdırılması mühəndisliyi ixtisasında təhsil alan tələbələri avtomatika sahəsində peşəkar təlimçi kimi yetişdirə bilərlər.

Görüşdə, həmçinin gənclərin innovasiya sahəsindəki startap ideyalarının dəstəklənməsi, zəruri laboratoriyaların qurulması, şəbəkə təhlükəsizliyi və kibertəhlükəsizlik kimi məsələlər də müzakirə olunub.

Görüşün sonunda qonaqlarla xatirə fotosu çəkilib, daha sonra şirkət nümayəndələri ali məktəbin kampusu və yaradılmış şəraitlə yaxından tanış olublar.

Şəbəkə texnologiyaları üzrə qlobal brendlərdən sayılan "Cisco" şirkəti 1984-cü ildən fəaliyyət göstərir. Şirkətin dəstəyi ilə yaradılmış "Cisco" Akademiyalarında İT texnologiyalarının əsasları və əməliyyat sistemləri, əşyaların interneti, proqramlaşdırma, şəbəkə texnologiyaları, şəbəkə təhlükəsizliyi və kibertəhlükəsizlik istiqamətləri üzrə təlim kursları keçirilir.

✍ **Zamin Məmmədov,**
***"İki sahil"***

*Mübariz Əhmədoğlu:*

# Vaşinqton Ermənistanı imtina etdiyi addımı atmağa məcbur etdi

"G-20"nin Osakada keçirilən sammiti dünyadakı geostrateji proseslərin arxitekturasına təsir edən hadisələrin bünövrəsini qoydu. Əgər əvvəlki sammitlər ABŞ-Rusiya prezidentlərinin görüşü ilə xarakterizə olunurdusa, bu dəfə BRİKS ölkələrinin başçıları da həmin ərəfədə qlobal sabitliklə bağlı müzakirə apardılar. Bu gün dünyada ən vacib proseslər ABŞ-la Çin arasında gedir. Bu proseslər hətta Rusiyaya da neqativ təsir edə bilir. Trampın hakimiyyəti dövründə ABŞ-ın apardığı siyasət dünya dövlətlərinin əksəriyyətini qane etmədiyinə görə əlavə format yaradılır. Bu format da "G-20"də öz yığıncağını keçirdi. Söhbət Rusiya, Çin və Hindistandan gedir. Onlar dünyada qlobal sabitliyi müzakirə edirdilər".

Bu barədə **politoloq Mübariz Əhmədoğlu** ötən gün keçirdiyi mətbuat konfransında bildirib.

Politoloq qeyd edib ki, sözügedən sammitin Azərbaycana da təsiri var: "Söhbət ondan gedir ki, Rusiya və Çinin liderləri "G-20"dən əvvəl Bişkekdə Şanxay Əməkdaşlıq Təşkilatının tədbirində, daha əvvəl isə Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə



Müşavirədə iştirak ediblər. Bu tədbirlərin hər birində Azərbaycan da təmsil olunub. Bu tədbirlərin hər ikisində "G-20" sammitinə yönəlik mesajlar var idi. Buradan Azərbaycan lazım olan faydanı götürə bildi. Bu baxımdan "G-20"nin Azərbaycan üçün həm qlobal, yəni dolayısı, həm də birbaşa əhəmiyyəti var".

M.Əhmədoğlu xatırladıb ki, Azərbaycan qlobal, o cümlədən regionda sabitliyin marağındadır. Qlobal miqyasda baş verən proseslərə Azərbaycan prizmasından baxanda diqqətçəkən əsas hadisə Dağlıq Qarabağ məsələsi ətrafında gedən proseslərdir: "Hazırda rəsmi Vaşinqtonun fəallaşması Azərbaycanın xeyrinədir. Dağlıq Qarabağ münaqişəsi ABŞ-da SSRİ-ni dağıtmaq üçün başladılıb. Ermənilər bu prosesdə alət olub. Dağlıq Qarabağ münaqişəsi başladılanda ABŞ-da "Azərbaycan" anlayışı o qədər dərk edilməmişdi. Bununla da Vaşinqtonun hazırkı mövqeyi ulu öndər Heydər Əliyevin siyasətinin, müdrikliyinin, daha sonra Prezident İlham Əliyevin siyasətinin ən bariz nümunələrindən biridir".

Politoloqun sözlərinə görə, vaxtilə ermənipərəst mövqe tutan ABŞ hazırda Azərbaycanı dəstəkləyir: "Bu gün ATƏT-in Minsk qrupunun həmsədrləri içərisində ən davamlı, təkmil mövqe nümayiş etdirən ABŞ-dır. Bu, strukturlaşmış mövqedir, yəni bu ölkənin bütün strukturlarının mövqeyi eynidir. Bununla da Vaşinqtondakı görüşdən sonra irəliləyiş hiss edilir. Nəticədə Vaşinqton Ermənistanı Moskvadakı görüşdə razılaşdığı, lakin sonra reallaşdırmaqdan imtina etdiyi addımı atmağa məcbur etdi. Ən azından Ermənistana aydın oldu ki, onlar heç bir şərtlə ABŞ-ın mövqeyini dəyişə bilməyəcəklər".

✍ **Ceyhun Piriyev,**
***"İki sahil"***

# SOCAR-ın TENDERLƏRİ

SOCAR
"Azərikimya" İB

*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## "Azərikimya" İB-nin "Etilen-polietilen" Zavodu

**2019-cu ildə əsaslı təmirə dayanması müddətində müəssisədə istismar olunan avadanlıqların (istilikdəyişdirici və silindrlərin) boru daxili sahəsinin polimer və digər çöküntü maddələrdən kimyəvi tərkibli xüsusi yuyucu məhlullarla və yüksək təzyiqli su şırnağı üsulları (xüsusi avadanlıq və ləvazimatlarla təchiz olunmuş qurğu) tətbiq edilməklə təmizlənməsi işlərinin yerinə yetirilməsi satın alınması üzrə (31006TX-19) AÇIQ MÜSABIQƏYƏ DƏVƏT**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət (forma əlavə olunur);

* İştirak haqqının ödənilməsi barədə bank sənədi(ödənişin təyinatında iştirak ediləcək müsabiqənin nömrəsi və iddiaçının tam adı göstərilməlidir);

* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 22 iyul 2019-cu il, Bakı vaxtı ilə saat 17:30-qədər Azərbaycan dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və iki surəti olmaqla 08 avqust 2019-cu il, Bakı vaxtı ilə saat 14.30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.

* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan dilində əldə etmək istəyənlər ƏDV daxil 500.0 (beş yüz ) manat və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Bank təminatı:***

* Müsabiqə təklifinin təminatı üzrə bank qarantiyası - 10000.0 AZN (on min) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə olmaq şərtilə, 22 iyul 2018-ci il, Bakı vaxtı ilə saat 14:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır. Əks halda iddiaçının müsabiqə təklifi olan zərf açılmadan geri qaytarılacaqdır.

* Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olmalıdır.

* Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) % məbləğində müəyyənləşdirilir.

***V. Müqavilənin icra müddəti:***

Satınalma müqaviləsinin 40 gün ərzində yerinə yetirilməsi tələb olunur.

***VI. Satınalan təşkilatın ünvanı:***

AZ5000, Azərbaycan Respublikası, Sumqayıt şəhəri, Səməd Vurğun küçəsi 86

**Əlaqələndirici şəxs:**

Təmir-tikinti şöbəsinin mühəndisi İradə Nəbiyeva Daxili: 31149
Korporativ mobil: 050 843 12 31 irada.nebiyeva@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 08 avqust 2019-cu il, tarixdə, Bakı vaxtı ilə saat 15:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə ediləcək:

http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**Satınalmalar qrupu**

# Azərbaycan diplomatiyası: bir əsrlik inkişaf yolu

Biz o kəsləri dahi adlandırırıq ki, onlar sıradan təqvim gününü, normativ statistikanı tarixə, salnaməyə çevirməyi bacarırlar. Bir neçə gündən sonra hakimiyyətə gəlişinin yarım əsrlik tarixçəsini qeyd edəcəyimiz Ulu öndər Heydər Əliyev məhz bu cür nadir insanlardan idi.

Lakin Ulu öndərin böyüklüyü həm də onda idi ki, milli yaddaş, milli təfəkkür, milli dövlətçilik ərkanı ilə bağlı taleyüklü məsələlərdə bir varislik əlaqəsi yarada bilmişdi ki, həmin qiymətli irsin, mirasın davamçısı cənab Prezident İlham Əliyevdir.

Məhz Azərbaycan Prezidenti İlham Əliyev özünün 16 may 2017-ci il tarixli "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" Sərəncamı ilə 2018-ci ili Cümhuriyyət ili elan etdi.

Azərbaycanın ilk müstəqil dövləti 1918-ci ildə quruldu.

Bununla bağlı Ümummilli liderimiz deyirdi: "Müsəlman Şərqində ilk demokratik cümhuriyyətin məhz Azərbaycan torpağında yaranması xalqımızın o dövrdə və o illər ərəfəsində - XIX əsrin sonunda və XX əsrin əvvəllərində milli müstəqillik, azadlıq duyğuları ilə yaşaması ilə bağlıdır".

Bəli, müsəlman Şərqində ilk demokratik dövləti quran babalarımız vətəndaşlıq şücaəti ilə yaranmış və yazılmış şərəfli bir tarixi obyektiv səbəblər üzündən 23 ay yaşada bildilər.

Tədqiqatçılar hesablayıblar ki, Xalq Cümhuriyyəti mövcud olduğu qısa bir zaman içində 350 ilkə imza atmışdır. Onların arasında elələri vardı ki, 70 illik sovet hakimiyyəti belə millətin dövlətçilik yaddaşından silib ata bilmədi - bayrağımız, himnimiz, gerbimiz. İlk parlament, dövlət aparatı, sərhədlərimiz... onlardan da əvvəl "İstiqlal bəyannaməsi".

Həmin ilklərdən biri də müstəqil dövlətin xarici siyasət xidmətinin yaradılması ilə bağlı olmuşdur. 1919-cu ilin iyulun 9-da Azərbaycan Xalq Cümhuriyyətinin Hökuməti Xarici İşlər Nazirliyinin Katibliyinə dair müvəqqəti təlimat qəbul etmişdir. Və məhz Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 24 avqust 2007-ci il tarixli Sərəncamına uyğun olaraq həmin tarix Azərbaycanın diplomatik xidmət orqanlarının işçiləri gününün təsis olunmasının əsasını təşkil edib.

Diplomatik xidmət orqanları rəhbərlərinin növbəti müşavirəsi də məhz ölkəmizdə diplomatik xidmətin 100 illiyi kimi əlamətdar bir vaxtda keçirilir.

Bir qədər tarixə ekskurs edərək söyləyək ki, kifayət qədər mürəkkəb siyasi şəraitdə yaranmış Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ilk gündən xarici siyasət məsələlərinə həssaslıqla yanaşmış, gənc müstəqil respublikanın beynəlxalq miqyasda tanıdılması, milli həqiqətlərin dünyaya çatdırılması, eləcə də qonşu və region dövlətləri ilə diplomatik münasibətlərin formalaşdırılması istiqamətində sistemli tədbirlər həyata keçirilmişdir.

Bu hədəflərin reallaşdırılması üçün Cümhuriyyətin bütün yeni yaradılmış hökumət kabinetlərində xarici siyasət idarəsinin fəaliyyətinə xüsusi yer verilir, onun hərtərəfli təchizatı diqqət mərkəzində saxlanılırdı. Həmin dövrdə xarici siyasət idarəsinə diplomatiya sahəsində səriştəsi olan Fətəli xan Xoyski, Məmmədhəsən Hacınski, Məmməd Yusif Cəfərov,




Adil xan Ziyadxanlı kimi şəxsiyyətlərin rəhbərlik etməsi bunu bir daha təsdiqləyir. Azərbaycanın Parlamentinin sədri Əlimərdan bəy Topçubaşovun rəhbərlik etdiyi nümayəndə heyətinin Paris Sülh Konfransında iştirakı da Xalq Cümhuriyyətinin xarici siyasətində ən mühüm hadisələrdən biri kimi tarixiləşmişdir.

Azərbaycanın yeni reallıqlar şəraitində əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş və cənab Prezident tərəfindən daha böyük uğurla davam etdirilən xarici siyasəti belə bir köklü-şaxəli, eyni zamanda, nəzəri-konseptual irsə söykənir.

XXI yüzillik bəşər tarixinə yeni siyasi mühit, yeni geosiyasi prioritetlər, beynəlxalq güc mərkəzlərinin yeni nizamı və beynəlxalq münasibətlərin fərqli konfiqurasiyası ilə daxil oldu. Nə qədər dünyəviləşsək, demokratikləşsək də dünyanın siyasi düzənini müəyyənləşdirən güc inhisarçılarının ikili standartları təşviq edən siyasətinə daha tez-tez rast gəlirik. Belə bir şəraitdə Azərbaycanın gənc və müstəqil dövlət kimi düzgün hesablanmış, dəqiq və təkmil konsepsiyaya əsaslanan milli xarici siyasi kurs yeritməsi müstəsna əhəmiyyətə malikdir.

Ölkəmizin xarici siyasət kursunun söykəndiyi effektiv dəyərlər sistemi mövcuddur. Özünün ən müxtəlif səviyyəli çıxışlarında cənab Prezident Azərbaycanın xarici siyasətini mükəmməl bir konsepsiya kimi təqdim eləyir; həm ölkə, həm də dünya ictimaiyyətinə. O, həmişə deyir ki, baxmayaraq ki, biz dünyəvi dövlət qururuq, amma biz öz kökümüz üzərində dövlət qururuq. Milli-mənəvi dəyərlərimizdən, qədim və zəngin dövlətçilik irsimizdən, müasir potensialımızdan qidalanan, eyni zamanda, sivil bəşəriyyətə xas olan mütərəqqi keyfiyyətləri sıyırıb özündə ehtiva edən bir dövlət qururuq. Məhz belə bir münbit əməkdaşlığa arxalanan xarici siyasət dövlətin milli təhlükəsizliyini, suverenliyini və müstəqilliyini qorumağa qadirdir.

Müstəqil xarici siyasət yeridən, milli təhlükəsizliyi təmin etmək üçün hücumçu diplomatiyaya üstünlük verən Azərbaycan hakimiyyəti daxili potensialına və resurslarına, ən başlıcası, xalqın dəstəyinə güvənir.

Cənab Prezidentin də ifadə etdiyi kimi, bu daxili amillər, yəni iqtisadi gücümüz, dünyada artan nüfuzumuz bizə imkan verir ki, bundan sonra da prinsipial xarici siyasət xətti yeridək. Azərbaycanın beynəlxalq nüfuzu, bizimlə əməkdaşlıq etmək istəyən ölkələrin sayı getdikcə artır. Azərbaycan dünyada, beynəlxalq arenada özünü etibarlı tərəfdaş və etibarlı dost kimi təqdim edə bilmişdir.

Hesab edirik ki, diplomatik xidmət orqanlarının nümayəndələri bundan sonra da xarici siyasətimizin taleyüklü məsələlərinin həllində səylərini əsirgəməyəcəklər.

Bu gün xarici siyasətimizin əsas prioriteti Dağlıq Qarabağ problemi ilə bağlı Azərbaycan həqiqətlərinin dünyaya daha israrlı, iddialı və qətiyyətli şəkildə çatdırılmasıdır.

Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli limiti tükənməyib. Bu birmənalıdır, qətidir. Müharibələr tarixi də göstərir ki, bütün müharibələrin taleyi danışıq masaları arxasında həll olunur. Xalq həmişə sülh və təkamül yolunu seçir. Dövlət başçıları, liderlər də özlərində iradə, səbat, müdriklik tapmalıdırlar ki, bu yola daha tez yetişməyin üsul və vasitələrini işləyib hazırlasınlar.

Biz, həmişə vurğuladığımız kimi, bu münaqişənin həllini birmənalı olaraq Azərbaycanın ərazi bütövlüyü, suverenliyi çərçivəsində görürük. Və Prezidentimizin də ifadə etdiyi kimi, istədiyimiz odur ki, Ermənistan rəhbərliyi, nəhayət, qəflət yuxusundan ayılıb regionda gedən prosesləri düzgün qiymətləndirsin, ərazi iddialarından əl çəksin, onu hansı aqibətin gözlədiyini soyuq mühakimə ilə təhlil etsin. Problemlə bağlı dünya ictimaiyyətinin, beynəlxalq təşkilatların mövqeyi birmənalıdır. Beynəlxalq hüququn ümumtanınmış norma və prinsipləri Azərbaycanın öz torpaqları üzərində suveren hüquqlarını təsbit edir.

Birmənalıdır ki, uğurlu xarici siyasətin təməlini qüdrətli iqtisadiyyat təşkil edir. Ölkəmizin iştirakçısı və təşəbbüskarı olduğu müxtəlif beynəlxalq layihələr geniş regional əməkdaşlıq üçün möhkəm əsas yaradır. Biz nəqliyyat infrastrukturuna - dəniz limanları, dəmir yolları, hava limanları və magistral yollara böyük sərmayə yatırmaqla əlverişli coğrafi mövqeyimizi real nəqliyyat imkanlarına çevirmişik. Bu gün Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin kəsişdiyi vacib tranzit ölkəyə çevrilib. 2017-ci ildə istifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu xətti Asiya və Avropa arasında vacib logistik bağlantıdır. Bütün bunlar həm beynəlxalq əməkdaşlıq formatını yaradır, xalqları və ölkələri bir-birinə bağlayır, sülh və sabitliyə xidmət edir, həm də xarici siyasi əlaqələrin məhsuldar məcraya yönəlməsində təkanverici rol oynayır.

Fürsətdən istifadə edib, xarici siyasət sahəsində çalışan bütün şəxsləri diplomatik xidmət orqanlarının yaradılmasının 100-cü ildönümü münasibətilə ürəkdən təbrik edir, güclü, qüdrətli və müstəqil Azərbaycan uğrunda gələcək işlərdə uğurlar arzulayırıq!

**N.İ.,K.A.**
**Newtimes.az**

## "Demokratiya aşiqləri"nin yeni didişmə məzhəkələri



**Sevinc Azadi**

Avropa Birliyinin müxtəlif ölkələrində və ABŞ-da məskunlaşan, özlərini "siyasi-ictimai fəal" və ya "müstəqil bloqger" adlandıran, əsasən "YouTube" və "Facebook" vasitəsilə Azərbaycan vətəndaşlarına ünvanlanmış çağırışlar edən şəxslərin sayı az deyil. Onlar sanki retrovirus sporları kimi artır, sosial şəbəkələrdə fəaliyyətlərini genişləndirməyə çalışırlar. İstisnasız olaraq hamısı "Azərbaycanda demokratiya, insan haqları və vətəndaş cəmiyyəti" uğrunda mübarizə apardıqlarını, bu işdə maddi məsələləri əsla düşünmədiklərini, məqsədlərinin sadəcə, "Azərbaycan insanının mənafeyini qorumaq (!)" və "hakimiyyətə qarşı mübarizə" olduğunu söyləyirlər. Orduxan Bəbirov, Vidadi İsgəndərli, Nahid Cəfərov, Arif Məmmədov, Emin Hüseynov, Məhəmməd Mirzəli, Qurban Məmmədov, Tural Sadıqlı, Səid Nuri, Natiq Ədilov və sair və ilaxır... Onlardan savayı, ən müxtəlif adlı "TV"lər, "kanal"lar və "qrup"lar da var.

Doğrudanmı bu insanlar müstəqil fəaliyyət göstərir, yalnız və yalnız siyasi mübarizə ilə məşğul olur, demokratiya ilə insan haqlarına dəstəklə məşğul olurlar?! Gerçəkdənmi onları kimsə maliyyələşdirmir və sadəcə, öz hesablarına fəaliyyət göstərirlər?! Suallara cavab istəyəndə bu adamlarda qıcıq yaranır, həmin şəxslərin "Facebook" səhifələrinin və "YouTube" kanallarının abunəçiləri ilə təqibçiləri arasında vay-şivən qopur, mərəkə başlanır, sual verən söyülür, təhqir edilir, ən yaxşı halda "hakimiyyət trolu" adlandırılır. Sual isə cavabsız qalır...

Halbuki ötən il Almaniya və Fransada olarkən "məşhur müstəqil bloqger"lərdən biri, sosial şəbəkələrdə "TV kanalı" və çoxsaylı səhifələri olan "demokratiya mübariz"lərindən biri ilə təsadüfi görüş alındı. Həmin şəxs bu sətirlərin müəllifinə söhbət əsnasında buyurdu ki, hər şey maliyyə ilə bağlıdır. "Hakimiyyət mənə maliyyə ayırsın, ofis təşkil etsin, xərclərimi ödəsin - müxalifəti içdən parçalamağa başlayım. Zahirən olduğum kimi qalım, amma bütün göstərişləri yerinə yetirim". "Satılmaz və sarsılmaz əqidəli" olduğunu deyən bu adam aylıq "qonorar"ını 30 min avro məbləğində müəyyənləşdirmişdi.

Zahirən soyuqqanlı, sivil və səbirli görünməyə çalışan Sevinc Osmanqızından tutmuş, marginallığı və qeyri-adekvatlığı ilə hətta ən aqressiv "bloqer"ləri belə, iyrəndirən Vidadi İsgəndərliyədək "bloqger"lərlə "mübariz"lər sadəcə, pula xidmət edirlər. Onları nə Azərbaycan maraqlandırır, nə Azərbaycanın problemləri, nə də Azərbaycanın insanları. Yalnız pul. Yeri gəlmişkən, ABŞ-a mühacirət etdikdən sonra oradan gecə-gündüz Azərbaycan xalqına ağıl öyrədən Sevinc Osmanqızının fəaliyyəti onsuz da cəmiyyətimiz tərəfindən təqdir edilmirdi. Son aylarda isə bu adam özünü şişirdərək, guya ən çox təqib və təhqir olunan müxalifətçi jurnalist olduğunu dilə gətirirdi. Belə bir obraz yaratmışdı ki, sanki xaricdəki mühacirlərdən əsas müxalif fiqur budur, ona təzyiqlər var və s. Bəlkə də məhz onun ortaya bu cür yanaşma qoyması oldu ki, digər mühacir, "Oyan" adlı passiv bir təşkilat yaradıb, xaricdə yeyib-yatan biri- Nahid Cəfərov Sevinci tikanlayıb... Sosial şəbəkələr üzərindən anlaşılmayan, siyasi-fəlsəfi çıxışlar etməklə özünü savadlı göstərməyə və bu üsullarla gənclər arasında rəğbət qazanmağa çalışan Nahid Cəfərovun diplomat şərəfinə hansı formada ləkə gətirdiyini zatən xalq gözəl bilir. Sevinc Osmanqızı da boş dayanmayaraq özünün "Facebook"dakı profilində status yazıb ki, guya özünün "möhtəşəm" efiri üstündə müxalifətdə dava gedir. Sanki Sevinc Osmanqızı BBC, CNN və s. kimi nüfuzlu bir telekanallarda efirə çıxır ha! Daha sonra fikrini belə izah edib: "Başa düşmədim, "Facebook"dan, "YouTube"dən sizdə yoxdur? Mən düyməni basıb danışmıram? Siz niyə etməyəsiniz? Əl-qolunuzu mən bağlamışam?! Ən gülməlisi isə Nahid Cəfərovdur. "Oyan"a həftədə bir yox, iki veriliş imkanı vermişəm. Əvvəl şəxsi problemi olub, sonra öz kanalında davam edib. Çox yaxşı. İndi məndən nə istəyir? Heç olmasa, bu qədər aydın etməyin. Məsələn, həftədə bir "etiraz" təşkil etmək olardı. Bu daha inandırıcı görünərdi, komandanı kim veribsə, barıtı çox düşüb".

Əvvəla, əvvəllər dost, eyni cəbhədə olan iki nəfərin belə bir-birinə "gülməli adam", "sifarişlə işləyən" və s. deyib ittiham etməsi müxalifət adına çox anormal və bir qədər də iyrənc görünür. Başqa vaxt birlikdən, həmrəylikdən danışıb xalqa ağıl öyrədənlər, əcəba, özləri niyə vahid məxrəcə gələ bilmirlər, mehriban ola bilmirlər?! İkincisi isə, Sevinc Osmanqızı statusunda aşkar şəkildə qarşı tərəfə və digər onun üstünə gələn müxalifətçilərə söz atır ki, sifarişlə ona qarşı kampaniya aparırlar və aydın şəkildə bu hücumu ortaya qoyublar. Bu da ondan xəbər verir ki, müxalifət daxilində hələ də bir-birinə qarşı inam, etimad, etibar hissi formalaşmayıb.

## Abonentlərin sayı 2 231 222-yə çatıb




2019-cu ilin yanvar-iyun ayları ərzində SOCAR-ın "Azəriqaz" İstehsalat Birliyində əhali sektoru üzrə 47 596 yeni abonent qeydiyyata alınmışdır ki, bunun da 24 670-i Bakı, Abşeron və Sumqayıt, 22 926-sı isə regionlar üzrədir. Yeni abonentlərin sayının artmasında abonent bazasının daha da genişləndirilməsi istiqamətində işlərin aparılması, yaşayış məntəqələrinin qazlaşdırılması və qaz təminatının bərpa edilməsi, həmçinin təbii qazla təmin olunmuş ərazilərin genişlənən hissələrindəki fərdi yaşayış evlərinin qazlaşdırılması olmuşdur.

Bundan başqa, Bakı şəhəri, ətraf qəsəbə və kəndlərdə abonentlərin qaz təchizatının yaxşılaşdırılması məqsədilə qaz kəmərlərinin yenidən qurularaq şəbəkənin genişləndirilməsi istiqamətində görülən məqsədyönlü işlər öz müsbət nəticəsini göstərmişdir. Aparılan işlər nəticəsində ölkə üzrə təbii qazla təmin olunan abonentlərin sayı 2 231 222-yə çatmışdır.

*Ekspert:*

## Avtodayanacaqların sivil qaydada idarə olunması üçün əsasnamə hazırlanmalıdır



Bakıda demək olar ki, hər bir sakin gündəlik nəqliyyat problemləri ilə üzləşir. Şəxsi və ya ictimai nəqliyyatdan istifadə edən, ya da təyinat nöqtəsinə piyada yollanan sakinlər hər hansı bir məkana çatmaq üçün tıxacda qalmalı olurlar. Araşdırmalar göstərir ki, tıxacların yaranma səbəblərindən biri də avtomobil dayanacaqları ilə bağlıdır. Başqa sözlə, avtodayanacaqlarda nəqliyyat vasitələrinin nizamsız saxlanması tıxacın yaranmasına səbəb olur.

Paytaxtın nəqliyyat sektorunda xoşagəlməz vəziyyətin yarandığı indiki mərhələlərdə avtomobil dayanacaqları ilə bağlı əsasnamənin hazırlanması məsələsi gündəmdədir.

Əsasnamənin hazırlanmasının əhəmiyyəti barədə danışan nəqliyyat sahəsi üzrə ekspert Ərşad Hüseynov qəzetimizə açıqlamasında qeyd etdi ki, bu məsələ olduqca vacibdir: "Əsasnamə hazırlanmazdan əvvəl xüsusi normativlər müəyyən olunmalıdır. Ona görə ki, bu problemlə bağlı demək olar ki, normativ-hüquqi aktlar mövcud deyil. Yalnız "Yol hərəkəti haqqında" Qanunda avtodayanacaqlarla bağlı xırda bir element qeyd olunub".

Həmsöhbətimizin sözlərinə görə, bu gün bir sıra özəl şirkətlər tərəfindən avtodayanacaqlar yaradılıb: "Avtodayanacaqların sivil qaydada idarə olunması üçün əsasnamə hazırlanmalıdır. Əsasnamə hazırlanmaqla yanaşı, orada qeyd olunan müddəaların icra mexanizmi də aydın şəkildə göstərilməlidir. Bu gün avtodayanacaqların şəxsi taksi xidməti göstərən nəqliyyat vasitələri tərəfindən zəbt olunması hələ də problem olaraq qalır. Dayanacaqlarda dayanan taksilər həmin ərazidə sıxlıq yaradırlar. Ancaq bir məsələni də nəzərə almaq lazımdır ki, şəhərimizin bir çox yerlərində taksilərin parklanması üçün məkan müəyyən olunmayıb. Həmin daşıyıcılar məcbur olub avtodayanacaqlarda dayanır və beləliklə, həmin ərazidə uzun-uzadı tıxac əmələ gəlir".

Ərşad Hüseynov onu da əlavə etdi ki, hazırda Bakıda sərnişindaşıma ilə 40-a yaxın şirkət məşğul olur: "Daşıyıcı şirkətlərin yalnız 10-nun texniki bazası var. Qalan 30 şirkət isə maddi-texniki bazaya malik deyil. Bu kimi problemlərin həll olunması üçün avtomobil dayanacaqları barədə əsasnamə hazırlanmalıdır".

**Cavid Əkbərov,**
***"İki sahil"***

# Məcburi köçkünlər dövlətin sosial siyasətinin mərkəzindədirlər

Bu gün ulu öndər Heydər Əliyevin öz yurdlarından didərgin salınmış soydaşlarımıza diqqət, qayğı, himayədarlıq siyasəti Ümummilli Liderin layiqli siyasi davamçısı ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizə rəhbərlik etdiyi ilk günlərdən bütün xalqımızı, xüsusən də məcburi köçkün şəraitində yaşayan soydaşlarımızı diqqət mərkəzində saxlayan cənab İlham Əliyev tərəfindən həyata keçirilən uğurlu sosial-iqtisadi siyasət, imzaladığı bütün Sərəncam və fərmanlar, verdiyi göstərişlər xalqımızın sosial rifah halının yaxşılaşdırılmasına yönəlib.

Dövlət başçısının siyasətinin ana xəttini ölkə vətəndaşlarının həyat səviyyəsinin yüksəldilməsi təşkil edir. 2019-cu il ərzində də təqdim edilən iki sosial paket ölkədə minimum əməkhaqqının iki dəfəyə yaxın artırılaraq, 130 manatdan 250 manata, minimum pensiyanın 72,4 faiz artırılaraq 116 manatdan 200 manata çatdırılmasına, sosial müavinət və təqaüdlərin orta hesabla 100 faiz artırılmasına imkan verib. Dövlət sektorunda işləyənlərin də əməkhaqları, məcburi köçkünlərin, tələbələrin təqaüdləri də əhəmiyyətli şəkildə artırılıb. Həmçinin 800 min vətəndaşın problemli kreditlərlə bağlı narahatlığına son qoyulmaqla, bu problemin həlli ilə bağlı maliyyə yükünü dövlət öz üzərinə götürüb. Ümumilikdə, təkcə bu il təqdim edilən iki sosial paket 4,2 milyon vətəndaşın rifahına ciddi dəstək olub. Dövlət başçısının yeni sosial paketi kimi təqdim olunan 18 iyun 2019-cu il tarixli sərəncamları, minimum pensiyanın artırılması üçün yeni qanunvericilik təşəbbüsü vətəndaş rifahı naminə atılan mühüm yeni addımlardır.

Dövlət başçısının müəyyənləşdirdiyi strategiyaya əsasən, ölkəmizdə sosial müdafiəyə ehtiyacı olan vətəndaşların, o cümlədən məcburi köçkünlərin problemləri davamlı şəkildə həll edilir, onların sosial müdafiəsi gücləndirilir. İndiyə qədər bu kateqoriyadan olan insanların maddi rifahının yaxşılaşdırılması üçün Dövlət proqramları qəbul edilib, sosial müavinətlərin artırılması istiqamətində mühüm tədbirlər görülüb. Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsini gücləndirmək, bu kateqoriyadan olan vətəndaşlara dövlət qayğısını artırmaq məqsədilə ardıcıl tədbirlər həyata keçirilir. Fevralın 26-da Prezident İlham Əliyev məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin artırılması haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, onların vahid aylıq müavinətinin məbləği 2019-cu il aprelin 1-dən 50 faiz artırıldı. Bu artım məcburi köçkünlərə dövlətimizin qayğısının növbəti bariz nümunəsidir.

Xatırlatmaq yerinə düşər ki, cənab İlham Əliyev 2003-cü ildə keçirilən andiçmə mərasimində "Azərbaycanda bir dənə də olsun çadır şəhərciyi qalmayacaq" bəyan etmişdi. Son illərin statistikasına diqqət yetirmək kifayətdir. Prezident İlham Əliyevin Azərbaycanın ərazi bütövlüyünün təmin olunması istiqamətində həyata keçirdiyi tədbirlər, qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması üçün görülən işlər bu kateqoriyadan olan soydaşlarımızın hər zaman diqqət və qayğı ilə əhatə olunduğunu göstərir.



Bu istiqamətdə atılan mühüm addımlardan danışarkən Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə həyata keçirilən tədbirləri də xüsusi vurğulamaq lazımdır. Artıq Qaradağ rayonunda 1026 məcburi köçkün ailəsi üçün yaşayış kompleksi inşa edilib. Abşeron rayonunun Masazır, Mehdiabad, həmçinin Sabunçu rayonunun Ramana qəsəbələrində 470 mənzil məcburi köçkünlərə təqdim edilib, Kürdəxanı qəsəbəsində 810 məcburi köçkün ailəsi üçün salınan yeni yaşayış kompleksi istifadəyə verirlib. Heydər Əliyev Fondu tərəfindən alınan 465 mənzilə Binəqədi rayonu, 9-cu mikrorayon ərazisindəki Təcili Tibbi Yardım Stansiyasının yarımçıq binasından məcburi köçkün ailələri köçürülüb. Sumqayıtdakı 1005 məcburi köçkün ailəsi üçün inşa olunmuş yaşayış binalarının da açılışı olub. Təkcə ötən il 5923 məcburi köçkün ailəsi yeni mənzillərə köçürülüb. 2019-cu ilin birinci rübündə isə 2.227 məcburi köçkün ailəsi yeni mənzillərlə təmin olunub.

Dövlətimizin başçısının tapşırığına əsasən, bu il 6-7 min məcburi köçkün ailəsinin yeni mənzillə təmin olunması nəzərdə tutulur. Müvəqqəti məskunlaşdıqları bina və tikililər qəzalı vəziyyətdə olan, hələ də ağır şəraitdə yaşayan məcburi köçkünlərin ilk növbədə yeni mənzillərə köçürülməsi barədə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın tapşırığı icra edilir.

Ümumilikdə məcburi köçkünlərin sosial problemlərinin həlli üçün indiyədək 7,1 milyard manat vəsait xərclənib. Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu tərəfindən 24 min məcburi köçkünə 14,8 milyon manat məbləğində mikrokredit, İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu tərəfindən isə 2 min 74 məcburi köçkün sahibkara 44,3 milyon manat güzəştli kredit verilib.

Qeyd etmək yerinə düşər ki, bu günlərdə Pirallahıda məcburi köçkünlər üçün yaşayış kompleksinin açılış mərasimində ölkə Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iştirak ediblər. Pirallahı rayonunda yataqxanalarda və digər inzibati binalarda müvəqqəti məskunlaşmış 306 məcburi köçkün ailəsi üçün çoxmərtəbəli binalardan ibarət yeni yaşayış məhəlləsi dövlətimizin başçısının 2011-ci ildə imzaladığı Sərəncama əsasən yaradılıb. Layihə üzrə doqquzmərtəbəli 3 bina tikilib ki, bunlardan ikisi 72, biri isə 162 mənzillidir. Yaşayış kompleksinə məktəb də daxildir və burada digər zəruri infrastruktur obyektləri tikilib, ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri görülüb. Bu, ölkə üzrə məcburi köçkünlər üçün salınan sayca 104-cü müasir yaşayış kompleksidir.

Dövlətimizin başçısı Pirallahıda məcburi köçkünlərlə görüşündə qeyd edib ki, son illərdə məcburi köçkünlərin problemlərinin həlli işində çox böyük addımlar atılıb: "Pirallahı rayonunda məcburi köçkünlər üçün gözəl evlər istifadəyə verilir. Bu, bir daha onu göstərir ki, dövlət məcburi köçkünlərə çox böyük qayğı, diqqət göstərir. Son illərdə böyük işlər görülüb, həm Bakı şəhərində, həm də bütün bölgələrdə. Məcburi köçkünlərin məişət problemləri uğurla həll olunur. Pirallahı rayonunda yaşayan köçkünlər üçün bu gün bu binaların istifadəyə verilməsi bunu bir daha göstərir. Bu il altı mindən çox məcburi köçkün ailəsi üçün yeni mənzillər, fərdi evlər tikilib istifadəyə veriləcək."

Məcburi köçkünlərin müvəqqəti yaşayış yerləri və çadırlardan müasir tələblər səviyyəsində inşa edilən qəsəbələrə köçürülməsi istiqamətdə atılan mühüm addımlardan biri də 2017-ci il martın 9-da Birinci vitse-prezident Mehriban xanım Əliyevanın sədrliyi ilə Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsinə həsr edilən müşavirənin keçirilməsi oldu. Mehriban Əliyeva müşavirədəki çıxışında ağır vəziyyətdə, qəzalı və yararsız binalarda məskunlaşan məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması ilə bağlı tapşırıqlarını da verdi və bu gün artıq o tapşırıqlar uğurla icra olunmaqdadır. Ötən il Bakıda "Qobu Park" köçkün şəhərciyinin, Abşeron rayonunun ərazisində 1000 məcburi köçkün ailəsi üçün salınmış yeni yaşayış kompleksinin və Sumqayıt şəhərində qaçqın və məcburi köçkün ailələri üçün inşa edilən yaşayış binaları kompleksinin açılış mərasimləri, o cümlədən digərləri və bu il də həmin istiqamətdə görüləcək işlərin davam etdirilməsi bunu bir daha təsdiq edir.

Bütün bunlar sübut edir ki, Prezident İlham Əliyev qaçqınların və məcburi köçkünlərin problemlərinin həllinə xüsusi qayğı ilə yanaşır, bu məsələni daim diqqət mərkəzində saxlayır. Dövlətimizin başçısı qaçqınların və məcburi köçkünlərin sosial problemlərinin həllini dövlətin sosial siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edib. Son illərdə qaçqınlar və məcburi köçkünlər üçün bütün zəruri infrastrukturla təchiz olunmuş qəsəbələr salınıb, çoxmərtəbəli binalar inşa olunub. Qaçqınların və məcburi köçkünlərin sağlamlıqlarının təmini, sosial durumlarının yaxşılaşdırılması, məşğulluqlarının artırılması və digər məsələlərlə bağlı da bir sıra mühüm işlər görülüb. Ümumiyyətlə, Azərbaycan dövlətinin qaçqınların və məcburi köçkünlərin sosial məsələlərinin həlli istiqamətində gördüyü tədbirlər dünyada çox nadir təcrübədir. Bu təcrübə bütün beynəlxalq təşkilatlar tərəfindən çox yüksək qiymətləndirilir və ondan istifadə olunur.

Pirallahıda məcburi köçkünlər üçün yaşayış kompleksinin açılış mərasimində dövlətimizin başçısı vurğulayıb ki, hələ də ağır vəziyyətdə yaşayan köçkünlərimiz var və onların problemləri də gündəlikdədir: "İndi genişmiqyaslı işlər aparılır ki, tezliklə bütün köçkünlər yaxşı şəraitlə təmin olunsunlar. Məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üçün Dövlət Proqramı da qəbul edilib. Proqram əsasında evlər tikilir, qəsəbələr salınır. Yüzdən çox qəsəbə salınıbdır və bu istiqamətdə bundan sonra da işlər aparılacaq. Qeyd etdiyim kimi, bu il ən azı altı min ailə yeni mənzillərlə təmin ediləcək. Gələn il ondan da çox yeni evlərin tikilməsi nəzərdə tutulur."

Həyata keçirilən qətiyyətli siyasətin məntiqi nəticəsi olaraq qaçqın və məcburi köçkünlərin tezliklə öz doğma torpaqlarına qayıdacaqlarına, Azərbaycanın ərazi bütövlüyünün bərpa ediləcəyinə inamları daha da artıb. Doğma yurd-yuvalarından didərgin düşmüş insanlar üçün salınan qəsəbələr, tikilən evlər qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşmasına xidmət etsə də, onlar bu ünvanlarda müvəqqəti məskunlaşdıqlarını, tezliklə ata-baba torpaqlarına qayıdacaqlarını yaxşı bilirlər. Əminik ki, işğalda olan bütün torpaqlarımız yağı düşmən tapdağından azad ediləcək və Lələtəpədə dalğalanan üçrəngli bayrağımız işğaldan azad edilmiş bütün torpaqlarımızda dalğalanacaq.

**Orxan Vahidoğlu, *"İki sahil"***

*Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim edilir.*

# SOCAR-ın TENDERLƏRİ



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## "Qaz İxrac" İdarəsi

**Kürəvi kranlar və siyirtmələrə olan tələbatı təmin etmək məqsədilə açıq satınalma müsabiqəsi (22001-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 01.08.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və iki surəti olmaqla 08.08.2019-cu il, Bakı vaxtı ilə saat 11.00-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ingilis dilində əldə etmək istəyənlər üzrə 472 manat (ƏDV ilə birlikdə), və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***

* Satınalma müqaviləsinin 90 təqvim günü yerinə yetirilməsi tələb olunur.

***V. İddiaçının müsabiqə təklifinin ümumi qiymətinin 3%-i miqdarında təminat tələb olunur.***

* Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat belə təklifi rədd etmək hüququnu özündə saxlayır.
* Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.
* Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 10 (on) %-i məbləğində tələb olunur.

***VI. Satınalan təşkilatın ünvanı:***

AZ1025; Bakı şəhəri; Xətai rayonu; Rövşən Əliyev 19.
**Əlaqələndirici şəxs:** Orxan Heydarov (soyadı və adı).
Satınalmaların təşkili şöbəsinin böyük mühəndisi (struktur bölmənin və vəzifənin adı)
+ (994)012 521 07 00 (22091) (əlaqələndirici şəxsin korporativ telefon nömrəsi)
Mob: +(994)50 842 20 91
Orxan.heydarov@socar.az (əlaqələndirici şəxsin korporativ elektron ünvanı)

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 08.08.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Qaz İxrac" İdarəsinin Satınalmalar qrupu**



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## Kompleks Qazma İşləri Tresti

**Qaynaq çubuğuna olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (26068-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 02.08.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və iki surəti olmaqla 09.08.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan və ya ingilis dilində əldə etmək istəyənlər 118 manat (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***

* Satınalma müqaviləsinin 30 (otuz) təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

***V. Hazırki satınalma əməliyyatı üzrə Satınalan təşkilat tərəfindən ən çoxu 50%-ə qədər avans ödənişinin yerinə yetirilməsi nəzərdə tutulur.***

***VI. Satınalan təşkilatın ünvanı:***

AZ1033, Bakı şəhəri, N.Nərimanov rayonu, Ağa Nemətulla küçəsi, 105
Kompleks Qazma İşləri Tresti
**Əlaqələndirici şəxs:**
Hüseynov Anar
Kompleks Qazma İşləri Tresti, Maddi-texniki təchizat və marketinq şöbəsinin rəis müavini
Telefon: (+99 412) 521-31-59, (+99 450) 842-60-39
Faks: (+99 412) 521-31-59
Anares.Huseynov@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 09.08.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**Kompleks Qazma İşləri Trestinin Satınalmalar qrupu**

iki sahil
VAHİD AZƏRBAYCAN UĞRUNDA!
Son səhifə
16
www.ikisahil.az / www.ikisahil.tv
GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET
№ 122 (7377) / Çərşənbə, 10 iyul 2019-cu il

# İnfeksiya mənbəyi olan əşyalarınızı yeniləyin



Hər birimizin gündəlik olaraq istifadə etdiyi məişət əşyaları var. Bu cür məhsullar arasında xanımların mətbəx və hamam otağının gigiyenasına görə işlətdiyi məhsullar xüsusi yer tutur. Alimlər xəbərdarlıq edir ki, bu cür əşyalar səliqəli və düzgün şəkildə qorunmadıqda ciddi infeksiya mənbəyi ola bilər. Bu səbəbdən bəzi belə əşyaları müəyyən müddət keçdikdən sonra istifadə etməməliyik. Onları yeniləri ilə əvəzləməliyik.

Mətbəxdə ən çox istifadə olunan əşyalardan **qab süngəri** daha çox seçilir. "Sağlamolun.az" saytında qeyd olunur ki, bu, ən təhlükəli məişət əşyalarından biridir. Daim nəm qalan süngərlər müxtəlif ziyanlı bakteriyaların çoxalması üçün "əla" şərait yaradır. Mütəxəssislər qab süngərlərinin üzərində hətta "sepsis" və "meningitin" törədəcilərini aşkar ediblər. Bu səbəbdən belə süngərlər həftədə ən azı bir dəfə yenilənməlidir. Süngərlərin digər növü də hamam otaqlarında istifadə olunanlardır. Nəm yerdə qalan belə süngərlərin üzərində ziyanlı mikrobların yığılması və sürətlə artması təhlükəsi çox yüksəkdir. Mütəxəssislər belə süngərləri hər istifadədən sonra yaxşı yumağı və açıq havada qurutmağı tövsiyə edirlər. Hər 3 aydan bir süngər dəyişilməlidir.

**Diş fırçası.** Diş və damaqlarla probleminiz yoxdursa, fırçanızı 3 aydan bir dəyişin. Yox, əgər siz infeksion xəstəliklərdən, xüsusilə angina, stomatitdən əziyyət çəkirsinizsə, o zaman müalicədən sonra fırçanı mütləq yeniləmək lazımdır. Mütəxəssislər diş fırçalarını hamamda üstüaçıq və nəm vəziyyətdə saxlamağı tövsiyə etmirlər.

**Ev ayaqqabılarınızı** da mütəmadi olaraq dəyişdirməlisiniz. Bu müddət 6 aydan bir olan zaman kəsiyində müəyyən edilib. Çünki 6 aydan çox istifadə olunduqda sizin ayaqlarınız və barmaqlarınız üçün göbələk riskini artırmış olacaq.

**Daraqlar.** Hər il dəyişmək, istifadə zamanı isə hər həftə sabunlu suda yumaq lazımdır. Əks halda baş dərisi və saçların sağlamlığında problemlər yarana bilər.

**Yastıqlar.** Toz və mikroskopik gənələri yığan yastıqları hər 5 ildən bir dəyişmək, istifadə zamanı isə tez-tez havalandırmaq, günə vermək lazımdır. Köhnə yastıqlar allergiyanın əsas səbəblərindən biridir. Səhərlər burnunuz axır, asqırıb-öskürürsünüzsə, mütləq yastığınızı dəyişin.

**Manikür və pedikür** avadanlıqlarınızı hər dəfə istifadə etdikdən sonra spirtlə, ya da qaynar su ilə təmizləyin. Bununla da siz onları dezinfeksiya edərək, istifadə zamanı həmin əşyaların üzərində olan bakteriyalardan, mikroblardan xilas edirsiniz.

Otaqların təravətləndirilməsi üçün istifadə olunan ətirləndirici və kimyəvi təmizləmə məhsullarını dərindən nəfəs alaraq sinəyə çəkmək təkcə yuxarı tənəffüs yollarının iltihabına səbəb olmur, həm də müasir təravətləndiricilərin tərkibində orqanizmdə bədxassəli hüceyrələrin inkişafına səbəb olan uçucu maddələr var. Əgər evin havasını təbii və təhlükəsiz yolla təravətləndirmək istəyirsinizsə, mixək, darçın, limon və ya portağal qabıqlarını bir qazana tökük, üzərinə su əlavə edib qaynadın. Vanna otağında isə sevdiyiniz bitkilərin efir yağlarını ağzı açıq şəkildə saxlaya bilərsiniz.

Evdə lak və boya istifadə edərkən unutmayın ki, otağın havasını dəyişmək lazımdır. Hətta adi dırnaq boyası da sağlamlıq durumuna təsir edir. İndi özünüz təsəvvür edin ki, tikintində lazım olan boyalar nə qədər zərərlidir. Onların tərkibindəki təhlükəli kimyəvi maddələr adi hüceyrəyə belə təsir göstərməyə qadirdir. Onlar gendə dönməz dəyişikliklər yaradır və nəticədə insan xəstələnməyə başlayır.

✍ **Yaqut Ağaşahqızı, *"İki sahil"***

# Üzüyünü tax, deyim kimsən



Üzük qadınların ən sevdiyi, geyimini tamamlayan aksessuarlardan biridir. İdman, klassik və başqa tərzə uyğun olan üzüklər var. Üzüyü hansı barmağa taxdığınız isə xarakteriniz haqqında müəyyən məlumatlar verə bilər.

Baş barmağınıza taxırsınızsa, müstəqil şəxsiyyətsiniz, azadlığınızı heç nəyə dəyişməzsiniz. Həyatınıza daxil olan insanların da bunu hörmətlə qarşılamasını istəyirsiniz. Sizə mane olmaq istəyən adamlardan heç nəyə baxmayaraq, uzaqlaşırsınız.

Üzüyü işarət barmağınıza taxırsınızsa, güclü və avtoritar olub həm iş, həm də şəxsi həyatda şansınız bol olacaq.

Üzüyü orta barmağa taxırsınızsa, etibarlı insansınız. Dostlar arasında sirr saxlamağı bacaran insan kimi tanınırsınız. Flirt etməyi xoşlamırsız, daha sağlam və möhkəm münasibət qurursunuz.

Üzüyü orta barmaqdan sonrakı barmağa taxırsınızsa, səliqəli və məsuliyyətli insansınız. Dağınıqlığa və səliqəsizliyə tab gətirə bilmədiyiniz üçün hərdən özünüzdən çıxa və aqressiv ola bilərsiniz.

Üzüyü çeçələ barmağınıza taxırsınızsa, diqqət çəkməyi xoşlayırsınız, həm də çox çəkicisiniz. Üzüyü bu barmağa taxanda özünüzə inam və güvən artır. Olduğunuz hər məkanda diqqət mərkəzində olmağınızın əsas səbəbi özünüzə olan inamın gətirdiyi çəkicilikdir.

✍ **Röya Rasimqızı, *"İki sahil"***



# Marsda metan yox olur?

Amerikanın Mars hərəkət aparatının etdiyi təkrar ölçmə əməliyyatları, Marsda əvvəl qeydə alınmış, metanın yox olmasını və konsentrasiya qazının əvvəlki vəziyyətə qayıtması haqqında yeni göstəricilərini təqdim etmişdir. Bu haqda NASA xəbər vermişdir.

Milli.Az bildirir ki, məlumatda qeyd edilir: "Metanın miqdarı birdənbirə aşağı, milyardda birə enib. Bu miqdar, "Curiosity" Mars üzərində olan peykin qeyd etdiyi fon göstəricilərinə yaxındır. Metan üzərində araşdırma davam edir. Biz metanın Mars atmosferində vəziyyətini, dəyişkənliyini izləməkdə həmişəkindən daha çox maraqlıyıq", - deyə missiyanın əməkdaşlarından olan Aşvin Vasavada bildirmişdir.

Qeyd edək ki, yaxın zamanlarda Nyu-York Taymş (The New York Times) qəzeti, NASA-nın "Curiosity" Mars hərəkət aparatının Mars üzərində həddindən artıq metanın əmələ gəlməsini qeyd etməsi haqda xəbər vermişdir.

# "Boeing" şirkəti uçan avtomobil layihəsində sona yaxınlaşır

ABŞ təyyarə şirkəti "Boeing", uçan avtomobil layihəsini həyata keçirə bilmək üçün Kitti Hawk şirkəti ilə ortaqlıq qurdu.

Milli.Az bildirir ki, ABŞ təyyarə istehsalçısı "Boeing", 2019-cu ilin əvvəlində uçan avtomobil olaraq adlandırılan hava nəqliyyatı vasitəsi prototipinin ilk sınaq uçuşunu müvəffəqiyyətli bir formada reallaşdırmışdı.

"Boeing" şirkətinin pilotsuz hava nəqliyyatı vasitəsi, eniş və qalxış üçün hər hansı bir təyyarə eniş məkanına ehtiyac duymur.

Bir vertolyot kimi yüksəlib aşağı düşə bilən hava nəqliyyatı vasitəsi, elektrikli mühərriklər istifadə edir. Bu pilotsuz hava nəqliyyatı vasitəsinin mənzili və mühərrik gücü "Boeing" tərəfindən hələ açıqlanmasa da indidən adından tez-tez danışdırmağa başladı.

"Boeing" yeni bir nəqliyyat səviyyəsi təmin edəcək olan pilotsuz təyyarələrlə, gələcəkdə bu sektorda adının tez-tez çəkilməsini istəyir.




## ELAN:

***Ələkbərzadə Xəyal Şakir oğluna məxsus BC kateqoriyalı sürücülük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.***

Təsisçi: SOCAR

Baş redaktor: Vüqar RƏHİMZADƏ
Baş redaktorun I müavini: İsmayıl HACIYEV
Baş redaktorun müavini: Nail Arifoğlu
Baş redaktorun müavini: Rəşad Bağırov

Bakı: Kapital Bankın 1 saylı Xətai filialı H/hesab
№AZ19AIIB380300194437 00306107
Kod № 200071
VÖEN: 2000157291

TELEFONLAR:
Qəbul otağı: 530-26-46, 430-87-97
Baş redaktorun I müavini: 530-26-36
FAX: 430-87-47
Mühasibatlıq: 430-87-27
e-mail: ikisahil@azdata.net

Ünvan: AZ1012 Bakı, H.Zərdabi prospekti-88

Qəzet "İKİ SAHİL"in kompyuter mərkəzində yığılır və "AZƏRBAYCAN" nəşriyyatında ofset üsulu ilə çap olunur.
Çapa imzalanıb: 10.07.2019-cu il saat 01:00
Qiyməti: 40 qəpik, Sayı: 8109
İndeks: 0151, Sifariş: 2274

Qəzetdə "AZƏRTAC", "OLAYLAR", "Azadİnform", "TREND", SİA, İnterFAX informasiya agentliklərinin məlumatlarından istifadə olunub.

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.